# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

7 dekabr 2023-ci il

№ 070 (3640)
Qiymәti 50 qәpik


Gün-Xəbər



## Bakıda Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilir

**Bakıda 15-ci Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilir.**

Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahının 2-ci rəisi ordu generalı İrfan Özsertin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə ölkələrimiz arasında mövcud dostluq və qardaşlıq münasibətlərinin hərbi əməkdaşlığa müsbət təsiri və bu əlaqələrin uğurla davam etdirildiyi vurğulanıb. Keçirilən birgə təlimlər və qarşılıqlı icra olunan fəaliyyətlərin bundan sonra da intensivləşəcəyinə əminlik ifadə olunub. Həmçinin əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən hərbi, hərbi-texniki məsələlərə dair geniş müzakirələr aparılıb. Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından ordu generalı İ.Özsertə təqdim olunub. Sonra Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində həmsədrlər rəhbərlik etdikləri nümayəndə heyəti ilə birgə Hərbi Dialoq İclasına başlayıblar. 15-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası dekabrın 8-dək davam edəcək.

## Müəllimlərin XVI Qurultayı keçiriləcək

Dekabrın 15-16-da Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan müəllimlərinin XVI Qurultayı keçiriləcək.

Bakı Konqres Mərkəzində baş tutacaq tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, Prezident Administrasiyasının rəsmiləri, nazirlər, nazir müavinləri, deputatlar, qonaqlar, yüzlərlə müəllim iştirak edəcək.

Qeyd edək ki, Azərbaycan müəllimlərin qurultayı 5 ildən bir keçirilir.

# "AVROPA PARLAMENTİNDƏ BƏZİLƏRİ ÖZÜNÜ MANYAK KİMİ APARIR"




Biz Avropa Komissiyası ilə, eyni zamanda, müxtəlif istiqamətlərdə fəaliyyət göstəririk, genişlənmə istiqamətində enerji əməkdaşlığı edirik. Avropa Komissiyasından xahiş qəbul etmişik ki, Avropaya qaz ixracı artırılsın, çünki orada sıxıntılar var. Biz bağlılıq haqqında danışırıq, ticarət müzakirə edirik, sərmayələri müzakirə edirik.

Bu sözləri Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən ***"Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər"*** Forumunda söyləyib.

Lakin Avropa Parlamentinin bir təsisat kimi buna maneə olduğunu vurğulayan dövlətimizin başçısı deyib: ***"Bu, bir növ məsuliyyətsiz insanlar qrupudur. Onların bəziləri kimi manyak özünü aparır. Çünki onların anti-Azərbaycan hissləri və bəyanatları insanın normal psixoloji statusundan kənara çıxır. Mən maksimal dərəcədə diplomatik lüğətdən istifadə etmək istəyirəm. Biz nə edə bilərik? Onlar 10-dan çox anti-Azərbaycan qətnamə qəbul ediblər. Biri çox, biri az. Bu, bizim üçün elə bir vacib deyil. Biz buna təəssüf edirik. Sadəcə, onu bəyan edə bilərik ki, biz bunu Avropa İttifaqının üzvlərinin hamısına amil etmirik"***

## Dövlətimi demokratik dəyərlərdən üstün tuturam...



**Bu yazını içimizdən çıxan satqınlar oxumasın...**

Səh.3

## 5-ci kolon mövcuddurmu və mövcuddursa o, necə işləyir?



(Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümunəsində)

Səh. 8

## Amerika ilə düşmənçilik kimə faydalıdır?



**ABŞ dollarları hesabına qurulan iqtisadiyyatımızla qürrələnirik...**

Səh. 5

# Prezident sülh müqaviləsinin detallarından danışdı



**”Sülh prosesinin təşəbbüskarı biz olmuşuq. İlkin mərhələdə Ermənistan tərəfinin səyləri var idi. Bu, həmin sülh müqaviləsi layihəsinə “Dağlıq Qaradağ respublikası”nı daxil etmək idi. Biz əlbəttə ki, bunu rədd etdik.”**

Bu fikirləri Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi barədə danışarkən söyləyib.

Dövlət başçısı deyib: “Onlar çalışırdılar ki, müxtəlif mətnlər, formatlar çərçivəsində bunu (“Dağlıq Qaradağ respublikası” – red.) oraya daxil etsinlər. Bizim isə münasibətimiz o idi ki, bu haqda danışa bilmərik, danışmamalıyıq və ərazi bütövlüyünün tanınması qarşılıqlı olmalıdır. Ona görə də biz deyirdik ki, Azərbaycanda erməni azlığı o mətnə daxil ediləcəksə, o zaman Ermənistandan didərgin salınmış azərbaycanlıların da məsələsi oraya daxil edilməlidir və onlar Ermənistana qayıtmalı, orada yaşamalıdırlar, onların hüquqları, təhlükəsizlikləri tam təmin olunmalıdır. Necə ki, Azərbaycanda erməni azlığının hüquqları təmin ediləcək. Təəssüf olsun ki, Ermənistan tərəfi bunu rədd etdi. Bu, məntiqsiz idi. Çünki biz qeyri-adi bir şey təklif etmirdik. Biz qarşılıqlı prinsipi təklif edirdik. Digər variant isə, ümumiyyətlə, bu mövzuya toxunmamaq idi. Sentyabrın 19-da keçirilən antiterror tədbirlərindən sonra mənə elə gəlir ki, bu maneə aradan qalxıb. Biz hər iki azlığı sülh müqaviləsində təsbit edəcəyik və ya bunun haqqında, ümumiyyətlə, danışmayacağıq”.

# QAİ-ı ABŞ-dən qərəzli siyasətindən əl çəkməyi tələb edib

**Qərbi Azərbaycan İcması ABŞ-dən Azərbaycana qarşı qərəzli siyasətindən əl çəkməyi və bölgədə sülhün bərqərar olunmasına maneə olmamağı tələb edir.**

Icmanın bəyanatında bildirilib ki, Birləşmiş Ştatların Beynəlxalq Dini Azadlıq Komissiyası dini azadlıqlara dair hesabatının Azərbaycanla bağlı hissəsində qərəz və Azərbaycanofobiyaya yer verib.



*"BMT missiyasının 2023-cü ilin oktyabr ayında Azərbaycanın Qarabağ bölgəsinə etdiyi səfərdən sonra dərc etdiyi hesabatda, oradakı mədəni və dini abidələrə heç bir zərər verilmədiyini təsdiq etməsinə baxmayaraq, Komissiya naməlum “insan haqları təşkilatları”nın hansısa narahatlıqları olduğunu qeyd edir.*

*Qeyd edək ki, bu hesabat Dövlət Departamentinin cari ilin may ayında bu mövzuda dərc etdiyi anti-Azərbaycan hesabatı ilə eyni dəsti-xətlə yazılıb. Komissiyanın hesabatının Dövlət Departamentinin hesabatından yeganə fərqi Azərbaycana qarşı iddialarını əsaslandırmaq üçün radikal millətçi erməni müəllifləri olan L. Xaçaturyan, H. Qulyan, S. Bokçeriyana daha açıq şəkildə istinad etməməsidir"*, - bəyanatda vurğulanıb.

İcmadan bildirilib ki, Azərbaycanda erməni dini abidələri ilə bağlı əsassız iddialara geniş yer verən ABŞ-nin sözügedən qurumu, nədənsə Ermənistandan azərbaycanlıların etnik və dini nifrət zəminində tamamilə qovulması, bu ölkədə vaxtilə dövlət qeydiyyatından keçmiş 300-ə yaxın məscidin və azərbaycanlılara məxsus bütün digər dini və mədəni irsin dağıdılması faktlarını görməzdən gəlir: *"Qərbi Azərbaycan İcması ABŞ-dən Azərbaycana qarşı qərəzli siyasətindən əl çəkməyi və bölgədə sülhün bərqərar olunmasına maneə olmamağı tələb edir. ABŞ insan hüquqları və dini irs məsələsində səmimidirsə, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququna dəstək ifadə etməli və Ermənistanda dağıdılan Azərbaycan dini və mədəni irsinin bərpasına dəstək verməlidir".*

# Bu şəxslərə hərbi rütbə veriləcək

Azərbaycanda məhkəmə ekspertizası idarələrinin ekspertlərinə hərbi rütbə veriləcək.

Bununla bağlı ”Məhkəmə ekspertizası fəaliyyəti haqqında” qanuna dəyişiklik təklif edilir.

Qanunun 11-ci maddəsinin on beşinci hissəsinə təklif olunan dəyişiklik məhkəmə ekspertizası idarələrinin ekspertlərinə hərbi rütbənin verilməsini, 39-cu maddənin ikinci hissəsinə təklif olunan dəyişiklik hərbi rütbəyə görə pul əlavəsinin ödənilməsini müəyyən edir.

Məhkəmə-psixiatriya ekspertizası müstəqil ekspertiza olduğu üçün qanunun 23- cü maddəsinin ikinci hissəsinə texniki xarakterli dəyişikliyin edilməsi təklif olunur. Bütövlükdə, təklif olunan dəyişikliklərin məqsədi məhkəmə ekspertizalarının hərbi xidmət nəzərdə tutulmuş müvafiq dövlət orqanında keçirilməsi üçün hüquqi əsaslanın qanunda təsbit edilməsi və məhkəmə ekspertizaları təsnifatının daha dəqiq müəyyən edilməsidir.

Hazırda məhkəmə ekspertlərinin fəaliyyətinin təşkili üzrə səlahiyyətlər aşağıdakı müvafiq icra hakimiyyəti orqanlarına məxsusdur:

*- məhkəmə-tibb (məhkəmə-psixiatriya) ekspertizası sahəsində Səhiyyə Nazirliyi;*

*- məhkəmə ekspertizasının digər sahələrində Ədliyyə Nazirliyi;*

*- ilkin və əlavə məhkəmə-daktiloskopik, məhkəmə tibbi-genetik, məhkəmə partlayış-texniki və məhkəmə-ballistik ekspertizaları sahəsində Daxili İşlər Nazirliyi.*



# Prezident: "Azərbaycandan Naxçıvana asan çıxış olmalıdır, bu, bizim legitim hüququmuzdur"

*"Ermənistanın hazırda iki variant var. Birincisi, öz xərcləri, yaxud da Avropa fondları-*




*nın pulu ilə dərhal 42 kilometrlik məsafədə dəmir yolu çəksinlər. Biz bunu, əslində, onların suveren ərazisi hesab edirik və suverenliklə bağlı bizim şərtimiz yoxdur. Lakin Azərbaycandan Naxçıvana asan çıxış olmalıdır. Bununla bağlı hansısa gömrük yığımı, yoxlamalar, sərhədçilərin prosedurları olmalı deyil. Bu, bizim legitim hüququmuzdur".*

Bu fikirləri Prezident İlham Əliyev ADA Universitetində keçirilən “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” mövzusuna həsr olunmuş Beynəlxalq Forumda çıxışı zamanı deyib.

Nikol Paşinyanla Brüsseldə müzakirə edilən məsələlərdən birinin Rusiyanın Kalininqradla dəmir yolu xətti təcrübəsinə əsaslandığını vurğulayan dövlət başçısı Ermənistan bunu istəmədiyini vurğulayaraq deyib: *“Onlar istəyirlər ki, bizə bu çıxış verilməsin, onun qarşısı alınsın. Onlar gördülər ki, biz bunu etmirik, başladılar şikayətlə çıxış etməyə. Beləliklə, biz Dövlət Departamentinin rəsmisindən müəmmalı bəyanat eşitdik. Birləşmiş Ştatlar qeyd etdi ki, əgər bu, Ermənistandan keçməsə, onlar buna imkan verməyəcəklər. Biz də öz-özümüzə sual veririk, bu nə deməkdir? Çünki biz bunu Ermənistana 3 il idi ki, söyləyirdik. Əgər istəyirsinizsə ki, bu, Ermənistan ərazisindən keçsin, onda bunu erməni dostlarınıza deyin. Siz İranla münasibətlərimizə necə müdaxilə edə bilərsiniz? Yəni, onlar deyirlər ki, biz buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Bu, necə olar bilər? Belə məsuliyyətsiz bəyanatlar bu və ya digər tərəfə yaxşı töhfə vermir. Əfsuslar olsun ki, bu, əslində, sabitliyi, regiondakı proqnozlaşdırmanı daha da çətinləşdirir, o cümlədən bağlantı layihələrinə də təsir göstərir”.*

# Dövlətimi demokratik dəyərlərdən üstün tuturam...

## Bu yazını içimizdən çıxan satqınlar oxumasın...

**VII əsrdən başlayaraq bəşəriyyəti müsəlman qanunları ilə halal yaşamağa yönəltməyə çalışan müsəlmanlara qarşı daim düşmənçilik edən, haramxor xristianlar öz çirkin "işğal et, parçala, hökm sür" mahiyyətli əməldən əl çəkmirlər. Əksinə, imkan düşdükcə, müsəlmanlara, xüsusən də inkişaf etməkdə olan, dirçələn türk dövlətlərinə, o cümlədən Türkiyəyə və Azərbaycana qarşı çürük, yalan, cəfəng iddialar uydurараq həyasız hərəkətlər edirlər.**

Ötən əsrlərdə çox zəif, normal cəmiyyət halına gəlməmiş, hazırda isə dünyanın qeyri-bərabər inkişaf qanununa uyğun tərəqqi edən xristianlar Orta əsrlərdə böyük güc mərkəzləri kimi fəaliyyət göstərmiş Osmanlı imperiyasının və Səfəvilər dövlətinin dünyada göstərdiyi müsbət keyfiyyətlərinə kölgə salmağa çalışırlar.

Bu cür iyrənc yollarla türk millətindən və müsəlman ümmətindən qisas alacaqlarına inanan xristian dövlətləri çox ciddi cəhdlə çalışırlar. Düz 5 əsrdən çoxdur hər cür yalana, böhtana əl atırlar ki, dünyada birləşib, güclənmək istəyən müsəlman-türk dövlətlərini paçalayıb, istismar etsinlər.

Türk dövlətlərini işğal etmək və sümürmək məqsədinə arzu etdikləri səviyyədə çatmayan xristianlar, xüsusən ruslar, ingilislər, fransızlar, yunanlar erməni kimi qaraçı həyat tərzi sürən, vətənsiz məxluqlardan daim çirkin məqsədlər üçün istifadə ediblər. İndinin özündə də bu arzu ilə yaşayırlar. ABŞ, Fransa və Avropa Birliyi elan etdikləri bütün demokratik dəyərlərdən imtina etmələri göz qabağındadır. Demokratik dəyərləri dünyəvi yox, dövlətdaxili dəyərlərə çevirən bu dövlətlər, digər dövlətlərin üzərinə basqın edirlər...

Baxın, Rusiya çarı I Pyotrun vəsiyyətinə uyğun olaraq, XX əsrin əvvəllərində ruslar erməniləri İraqdan, İrandan, Türkiyədən və Yaxın Şərq ölkələrindən əraziyə köçürüb, oyuncaq Ermənistan dövlətini torpağımızda yaratdı. 1920-ci il Bolşevik işğalından sonra Azərbaycan ərazilərini Ermənistana verərək, onun ərazisini 9 min kv. km-dən 29 min kv. km-ə qədər böyütdülər. Hazırda erməniləri himayə edən Rusiyadan əlavə, ABŞ və Fransa da Ermənistanı silahlandırmaqla məşğuldur.

Türk Dövlətləri Təşkilatının (TDT) yaranması super güclərin yuxusunu ərşə çəkib. Onlar düşünür ki, TDT vasitəsilə güclənən Türkiyəni artıq saxta "erməni soyqırımı" ilə şərləmək çətin olacaq, oyuncaq Ermənistanı ondan 4-5 dəfə güclü olan Azərbaycan üzərinə hücum etməyə daha təhrik etmək mümkün olmayacaq. Ona görə də başqa vasitələrə əl atmağın uğurlu olacağını düşünərək, sapı özümüzdən olan "balta"lardan istifadə etmək yolu tutublar...

Bu hallar azmış kimi, xarici düşmən dövlətlər zaman-zaman ölkəmizə sızdırdıqları agentura şəbəkələrindən istifadə etməyə və hakimiyyəti ələ almaq uğrunda ölüm-qalım mübarizəsinə girişən sapı özümüzdən olan, lakin xarici düşmən dövlətlər tərəfindən maliyyələşdirilərək, idarə olunan qüvvələrdən istifadə etməyə başlayıblar...

Məsələn, "AbzasMedia" saytının təsisçisi, baş redaktoru və digər jurnalist qisminə



də fəaliyyət göstərən şəxslərin müxtəlif cinayət törətməkdə şübhəli qismində həbs olunması dediklərimizə əyani sübutdur. Düzdür, həbs zamanı səhv hərəkətlərə yol verən hər hansı şəxs ola bilər, ölkənin hüquq-mühafizə orqanlarının əməkdaşları içərisində az da olsa, qeyri-peşəkar, peşə etikasına tam əməl etməyənlərin olması mümkündür...

Amma "AbzasMedia"nın əməkdaşlarının tənqidi yazılarına görə həbs olunmasını iddia edənlər ciddi səhv edirlər, hər bir jurnalistin sərbəst şəkildə yazdığı tənqidi yazıların, ölkədə saysız-hesabsız müstəqil "YouTube" internet




televiziya kanallarının sərbəst, maneəsiz fəaliyyət göstərdiyi indiki halda, Azərbaycanda jurnalistin peşə fəaliyyətinə görə, həbs olunmasını iddia etmək absurddur və yuxarıda bəhs etdiyimiz düşmən dövlətlərin ölkəmizdə qalamaq istədikləri tonqala odun atmaq cəhdidir...

Bu, qətiyyən demokratiyanın əleyhinə getmək və ya ondan imtina etmək demək də deyil, öz dövlətini istənilən demokratik vasitədən daha çox sevməkdir!..

Dağıdıcı, meşşan əxlaqi dəyərləri üstün tutan, kişi ilə kişinin, qadınla qadının nigahına icazə verən, LGBT kimi islam əxlaqına zidd, islami dəyərlərə dərin nifrət bəsləyən və Müqəddəs "Qurani-Kərim"i yandıran, xristian əxlaqına yaramaz, müdhiş, qəbuledilməz əxlaqsızlığı gətirən, təşviq edən istənilən demokratiyadan imtina etməyə hazıram!..

Bu mövqeyimi kim bəyənmirsə, öz işidir, zəhmət çəksin, getsin, bir stəkan sərin su içsin və yazını açıq gözlə, varsa, düşünmək bacarığına malik başla oxusun, nə demək istədiyimi doğru dərk etsin, elə düşünməsin ki, bu yazını yazanda, kimə isə yarınmışam, ölkəmizdə baş verən çoxsaylı haqsızlığa, cinayətə, məmur özbaşınalığına, rüşvətxorluğa, korrupsiyaya və bu cür mənfi hallara göz yummuşam! Əsla!

Özümü xöşbəxt sayıram ona görə ki, vacib olan bir məsələni çox yaxşı anlayıram: - Milli Dövlətimiz, Bayrağımız, Himnimiz varsa, deməli dünya xalqları içində Millətimizin imzası var! Bax, vacib olan əsas məsələ budur!..

Hakimiyyətə gəlincə isə, o gəldi gedərdir, istəsək də, istəməsək də, zaman keçdikcə, hakimiyyət yeniləcək, dəyişəcək! Hakimiyyət də körpə uşaqlar kimi yıxıla-yıxıla, büdrəyə-büdrəyə böyüdüyü kimi, hakimiyyət də səhv edəcək, sonra düzəldəcək, düzələ bilməyən hakimiyyətdən gedəcək, yenisi gələcək və həyat beləcə, öz axarı ilə davam edəcək!

Amma bu çətin, gəlimli-gedimli dünyada Milli Dövlət qurmaq hər millətə nəsib olmur! Dövləti qurmaq bəlkə də asandır, amma onu qoruyub saxlamaq isə, çox çətindir! Uzun əsrlər boyu milli dövlətimiz olduğuna baxmayaraq, dövlətçilik tariximizi diqqətlə oxuyun, görün, dövlətimizi qorumaq üçün nə qədər qurbanlar vermişik və hələ bundan sonra da qurban verməк zorundayıq!..

Bir faktı həmişə unutmamalıyıq ki, dünyada 5 min millət və xalq yaşadığı halda, bu qədər millətlərin yalnız 200-dən bir qədər çoxu milli dövlətə malikdir!

Yazımı vətənpərvər, həkim olduğu halda, müəllimlik edərək, millətin savadlanması qayğısına qalan şair Abbas Səhhətin "Vətən" şeirilə bitirirəm:

*Könlümün sevgili məhbubu mənim,*
*Vətənimdir, vətənimdir, vətənim.*

*Məni xəlq eyləmiş əvvəlcə Xuda,*
*Sonra vermiş vətənim nəşvü nüma.*

*Vətənim verdi mənə namü nəmək,*
*Vətəni məncə unutmaq nə demək?!*

*Anadır hər kişiyə öz vətəni:*
*Bəsləyib sinəsi üstündə onu.*

*Südüdür ki, dolanıb qanım olub,*
*O mənim sevgili cananım olub.*

*Saxlaram gözlərim üstə onu mən,*
*Ölərəm, əldən əgər getsə vətən.*

*Vətənin neməti nisyan olmaz,*
*Naxələflər ona qurban olmaz.*

*Vətən – əcdadımızın mədfənidir,*
*Vətən – övladımızın məskənidir.*

*Vətənin sevməyən insan olmaz,*
*Olsa, ol şəxsdə vicdan olmaz.*



Tapdıq ABBAS
Təsisçi,
"Əməkdar mədəniyyət işçisi",
Pedaqoji fəlsəfə doktoru,
Qarabağ müharibə veteranı
t.abbas1952@list.ru

# Məmurların vətəndaşlarla görüşmə formatını dəyişməyə ehtiyac var

## İstənilən təkrarçılıq xalqı çox tez yorur

**Cənab Prezident yüksək vəzifəli məmurların və icra başçılarının vətəndaşlarla görüş keçirməsini görüş xatirinə təyin etməyib. Bu görüşlər dövlətin mobil idarə olunması forması kimi, çox ciddi əhəmiyyətlidir.**

Prezident Administrasiyası tərəfindən nəzarət edilən bu görüşlər yerlərdə yaranan xeyli problemlərin vaxtında və operativ həll olunmasına kömək edir, vətəndaşların problemlərini yerindəcə həll etməyə imkan yaradır.

Vətəndaşlarla yerlərdə görüşən icra başçıları hər şeydən əvvəl, rayonun yaşayış məntəqələrilə yaxından tanış olurlar, yaşayış məntəqələrindəki insanlarla daha sıx təmasda olur və əlaqə yaranır.

Nazirlər, Komitə sədrləri rayonlara səfər edir, rayonlarda gedən quruculuq işlərilə yaxından tanış olurlar. Bir sözlə, bu görüşlərin keçirilməsi presudarlarına tam riayət olunmasa da belə, bu tədbirin faydası çoxdur. Təəssüflə qeyd edim ki, vətəndaşlarla mütəmadi keçirilən bu görüşlərdə bəzən yerlərdə xalqın üst-üstə yığılıb qalmış problemləri həllini tapmır, xalq qəzəblənir, narazılıq artır, nəticədə yaranan çətin durum ortadan qaldırılmır və ölkə Prezidentindən gizlədilir.

”Paralel qəzeti” Media Holdinq olaraq, yerlərdə keçirilən görüşlərin işıqlandırılmasını daim diqqətdə saxlayırıq.




Bəzi hallarda icra başçılarının vətəndaşlarla görüşdən yayınması halları ilə üzləşirik.

Son zamanlar bu cür hallarla daha çox qarşılaşırıq. Bakı şəhərinin Yasamal, Binəqədi, Nəsimi rayonlarında, Beyləqan, Ağcabədi, Sabirabad rayonlarında yaşayan vətəndaşlardan şikayət məktubları almışıq.

Qarabağ qaziləri şikayət məktubunda qeyd edirlər ki, Yasamal RİH başçısı Elşad Həsənov vətəndaşlarla keçirdiyi görüşlərdə insanlara verdiyi vədləri yerinə yetirmir, hər dəfə yalan danışır. Şikayətçilər bildirirlər ki, keçirilən görüşlər əsasən, məktəb binalarındakı iclas zallarında keçirilir, görüşlərdə iştirak edənlər arasında sadə əhali nümayəndələri iştirak etmirlər. Görüşdə əsasən, Yasamal RİH-in aparat işçiləri, məktəb direktorları, müəllimlər, rayonun idarə, müəssisə və təşkilat rəhbərləri iştirak edir. Bu cür keçirilən tədbirləri Yasamal RİH ”vətəndaşlarla görüşü” adlandırır...

RİH başçısı Elşad Həsənovun icra başçısı kimi, rayonda heç bir fəaliyyəti yoxdur, yalnız rayon ərazisində bütün boş əraziləri rüşvətlə sənədsiz satır. Rayonda başçının özünə məxsus çoxsaylı ticarət obyektləri olduğu haqda bizə yazırlar, qazilər aparat işçilərinin başçının hərəkətlərini təkrar etmələrindən şikayətlənir.

Yazılanlara inansaq, hərbi xidmət borcunu verməyən icra başçısı müharibə veteranlarını, qaziləri və şəhid ailələrini görmək belə, istəmir. Cənab Prezidentin rayona ayırdığı sosial iş yerlərini Elşad Həsənov rayonda olan MİS-lər, Yaşıllaşdırma idarəsi, 4 ərazi nümayəndəliyi və digər xidmət idarə, təşkilatları arasında bölüb, rayonun işsiz əhalisini işlə təmin etmək əvəzinə, ayrılmış sosial iş yerlərini öz yaxın adamlarının adlarına keçirib, məvaciblərini isə idarə rəhbərləri mənimsəyirlər...

Bir sözlə, Yasamal rayon icra hakimiyyətinin başçısı Elşad Həsənovu rayon əhalisi rəhbər kimi yox, rayondakı yaşıllıqları məhv edən, ağacları kəsib əraziləri satan, qanunsuz ev, obyekt tikənlərdən rüşvət alan şəxs kimi tanıyırlar...

Azərbaycanın digər rayonlarında da vəziyyət ürəkaçan deyil. Yasamal rayonunda gedən mənfi proseslərdən aşağı-yuxarı az fərqlə proseslər davam edir. Aydın hiss olunur ki, cənab Prezidentin vaxtının azlığından, daim daha ciddi işlərlə, xüsusən işğaldan azad olunmuş ərazilərin dirçəldilməsilə məşğul olmasından sui-istifadə edən bəzi məmurlar insanların problemlərilə məşğul olmurlar.

Azərbaycanda kriminal hadisələrin artan templə davam etməsi də bəzi məmurların işinə məsuliyyətsiz yanaşmasından irəli gəlir. Bu da bilavasitə hakimiyyətin ayrı-ayrı orqanlarında yaranan zəifliklə, ləngliklə bağlıdır. Məsələn, Qəbələ rayonunun Vandan kəndində baş vermiş polis-vətəndaş qarşıdurması barədə bütün xarici mənbələr öz kurslarına uyğun iki gündür ölkəmizin əleyhinə xəbərlər yayırlar, ölkənin hüquq-mühafizə orqanları isə hələ də susur.

Düşünürəm ki, Qəbələnin Vəndam yaşayış məntəqəsində baş vermiş insident barədə rəsmi informasiyanın gecikməsi xarici düşmənlərimizin (onlar Azərbaycana qarşı indi daha məkrlidirlər) əlinə əlavə kozr vermək deməkdir...

Sonda Qəbələ hadisəsinin kökündə vaxtı ilə İsmayıllıda, Qubada və digər bu tipli baş vermiş hadisələrdə olduğu kimi, sözsüz, düşmən barmağı var və rayonlarda buraxılan boşluqlar belə xoşagəlməz halların baş verməsinə səbəb olur...

***Dəniz***

# Himalay Məmişov müharibə veteranlarına verilən 80 manatın çox olduğunu "isbat" etdi...

**Hər axşam bir saat toyda oxuyub 500 manat alan müğənni-xalq artistinə ayda 300 manat vermək olar, amma təsadüfən düşmən gülləsinə tuş gəlməyən, sağ qalan müharibə veteranına 80 manatdan çox vermək olmaz...**

ƏƏSMN nəzdində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov mətbuat konfransında bəyan etdi ki, ”veteranlara verilən 80 manat komunal xərclərini ödəməyə imkan verir, hətta hesablamalara görə, hər bir veteranın kommunal xərcini ödəyir və 20 manat artıq qalır”! - deyir.



DSMF sədri Himalay Məmişov belə deməklə, əslində Qarabağ müharibə veteranlarına bəslədiyi antipatiyanı açığa çıxardı. Himalay Məmişovun işlətdiyi söz özünün yox, hakimiyyət tərəfdən onun qulağına fısıldadılmış sözdür. Çünki hakimiyyət müharibə veteranlarına təyin olunmuş 80 manat aylıq təqaüdü 200 manata qaldırmaq istəmir.

Halbuki müharibə veteranlarına 2019-cu ildə təyin olunmuş 80 manat 5 il bundan öncə verilməyə başlayıb. Keçən müddətdə sosial-iqtisadi, komunal, təqaüd, minimum əmək haqqı və digər bu kimi ödənişlər bir neçə dəfə artırılıb, hər nəfərə düşən ehtiyac zənbili və qiymətlər sürətlə artıb.

DSMF sədri Himlay Məmişov və ondan yuxarıda oturanlar nəzərə almır ki, hər ay əməkdar artistə 150 manat, xalq artistinə 200 manat, (artistlərin hər axşam toylardan qazandıqları azmış kimi) heç bir elmi ixtirası olmayan, təqaüdə çıxan fəlsəfə doktoruna təqaüddən əlavə 300 manat, professora 400 manat pul verən dövlət, torpağı canı bahasına qoruyan və təsadüf nəticəsində müharibənin od - alovundan çıxan müharibə veteranına isə ayda 80 manat vermək sadəcə, vicdansızlıqdır!..

Müharibə veteranlarına ən az aylıq təqaüd verilməsinin başqa bir səbəbi də odur ki, müharibə veteranları arasında onminlərlə məmurun nə övladı, nə də qohum-əqrabası yoxdur!

Ona görə də, Azərbaycanda dövlət vəzifəsi tutan bütün məmurları müharibə veteranlarının, şəhid ailələrinin, qazilərin ağır vəziyyəti maraqlandırmır.

Ölkə Prezidenti tapşırıq, göstəriş verib, israr etsə də, ölkənin məmur korpusu öz bildiyini edir, əksər vaxt da ölkə başçısına saxta məlumatlar verib, işi bitmiş hesab edirlər.

Mütəxəssislərin hesablamalarına görə, əgər dövlət müharibə veteranlarına və qazilərə hər ay 500 manat təqaüd versə, il ərzində dövlət 30 milyon manat pul xərcləməli olar. Amma elə məmurlarımız var ki, dövlətdən ildə 50 milyondan çox pul mənimsəyir.

Rüşvət və korrupsiya əməlinə görə, neçə-neçə həbs olunmuş və hazırda ev dustaqlığına buraxılmış sabiq DSMF sədri Səlim Müslümovun mənimsədiyi 2,5 milyardı, Azərbaycan Beynəlxalq Bankın sabiq müdiri, hazırda özü həbsdə olan, arvadı Londonda lüks həyat sürən Cahangir Hacıyevin dağıtdığı 16 milyard manat və çoxsaylı rüşvətxor məmurların xaricə daşıdıqları milyardlarla pulun yanında ildə 30-50 milyon pulun qazilərə və müharibə veteranlarına verilməsi Azərbaycan kimi torpağının altı da, üstü də qızıl olan dövlət üçün nədir ki?!..

Görəsən, Himalay Məmişov kimi məmurların oğlu, bacısı oğlu, qardaşı oğlu və digər qohumlarının övladları şəhid, qazi, müharibə veteranı olsaydı, onlara belə yad münasibət bəsləyərdimi?! Belələri camaat qarşısına çıxıb yaramaz-yaramaz danışanda xəcalət çəkib, utanmırlar?!..

***Səfurə***

# Amerika ilə düşmənçilik kimə faydalıdır?

## ABŞ dollarları hesabına qurulan iqtisadiyyatımızla qürrələnirik...

ABŞ və Avropanın Azərbaycanın bir günlük məhdud antiterror əməliyyatına münasibətini bütün cəmiyyətimiz tənqid etdi - onların ədalətsiz mövqeyinə etirazını bildirdi. Hətta, biz düşünürük ki, Azərbaycan vətəndaşları ayağa qalxıb, küçələrə çıxmalı, bu hökumətlərin ədalətsiz mövqeyinə qarşı Amerika və Avropa ictimaiyyətindən dəstək istəməli idi. Amma nə baş verdi? Azərbaycan hökumətinin patranajlığı ilə ölkə "ziyalıları", "siyasətçiləri" və "müxalifətçiləri" cəmiyyəti və hökuməti ABŞ və Avropadan üz döndərməyə çağırdı. Cənablar, siz Azərbaycanın strateji inkişaf istiqamətini Avropadan Orta Asiyaya çevirməklə nə qazanmaq istəyirsiniz!?

Hər şey ABŞ-ın Azərbaycandakı səfirliyinin Amerika universitetlərini bitirmiş məzunlar ilə noyabrın 27-də Bakıda "Marriott Absheron" otelində keçirilməsi planlaşdırılan təntənəli görüşün təxirə salınması ilə başlandı.

Bu, Baku TV və "Qafqazinfo" resurslarında səfirliyin "casus şəbəkəsi" və "ABŞ-da təlim keçərkən Amerika agenti kimi cəlb edilmiş" şəxslərlə görüş təşkil etməsi barədə xəbərlərdən sonra baş verdi. Bu gün Azərbaycan hökumətinin ortaya qoyduğu mövqe bəlkə də "haqlı" görünə bilər, amma buna haqq qazandırmaq mümkün deyil. Çünki bütün siyasi addımlar cəmiyyətin daha çox qazanmasına hesablanmalıdır. Amerika və Avropa kimi dünya avanqardları ilə düşmənçilik bizə bir dövlət olaraq nə qazandıra bilər?!

Məsələn, biz bütün xaricdə təhsil alan tələbələri heç bir sübut ortaya qoymadan casus adlandırıb, istintaqa cəlb edək. Səfirliklə görüşə 400-ə yaxın məzun dəvət edilmişdi. Lakin xaricdə təhsil alıb, Azərbaycanda çalışan mütəxəssislərin sayı bundan on dəfələrlə çoxdur. Həmin mütəxəssislər iqtisadiyyatın və Azərbaycan hökumətinin islahatlarının lokamativini təşkil edir. Biz bu mövqedən çıxış etməkdə israrlı olsaq, həmin mütəxəssislər qısa müddət ərzində ölkəni tərk etməyi planlaşdıracaq. O adam məmur olsa belə, birincisi, düşünəcək ki, haçansa onun da qapısı döyülə bilər - ən azı başqa bir səhvi üzündən Amerikada oxuduğunu bəhanə gətirib şərləyə bilərlər. İkincisi, Orta Asiyaya inteqrasiyanı hədəfləyən ölkədə Amerika, Avropa təhsilli mütəxəssislərin çalışmağa həvəsi olmayacaq. Addambaşı sistem onların əl-ayağına dolaşacaq, onu cilovlamağa çalışacaq. Belə davam etsə, bu iki amil ölkədən beyin axınını gücləndirəcək. Bir neçə ildən sonra isə Azərbaycanda onsuz da az olan İP mütəxəssislərini çıraqla axtaracağıq. Üstəgəl, hazırda xaricdə minlərlə azərbaycanlı tələbə təhsil alır. 2021-2022-ci ili əhatə edən təhsil ilində 728, 2022-2023-cü ili əhatə edən təhsil ilində isə Amerikada 901 azərbaycanlı tələbə təhsil alır. Avropa unversitetlərində təhsil alanların sayı isə minlərlədir. Ölkənin bu günkü durumundan xəbər tutan həmin tələbələr, sizcə Azərbaycana qayıtmaq fikrində olacaqmı? Əlbəttə yox. Hansı ağılsız cənnət kimi Avropanı buraxıb, Azərbaycana "casus" ittahamı ilə üzləşməyə gələr?

Düşünməyin ki, neftimiz, qazımız var, bizim Amerikanın və Avropanın intellektinə və təhsilinə ehtiyacımız yoxdur. Bu gün inkişaf edən dünyada intellektə və müasir texnologiyalara hamının ehtiyacı ciddi var. Hazırda dünyanın toplam sərvətinin 40%-i, dünya əhalisinin isə cəmi 2%-i Rusiya Federasiyasında cəmləşib. Bu hesabla ruslar hamıdan yaxşı yaşamalı və inkişaf etməli idi. Lakin bu gün Rusiya tankların və digər hərbi texnikanın təmiri üçün çipləri Avropa və Amerika istehsalı olan paltaryuyan və digər məişət texnikalarından sökməklə əldə edir. Siz təsəvvür edin, Rusiya kimi "nəhəng" 20-30 çip əldə etmək üçün 1000 dollarlıq paltaryuyan almağa məcbur qalır. Halbuki həmin çiplərin Amerika və Avropada qiyməti 40-50 sentdir. Bu məkandan üz döndərsək, bir neçə ildən sonra bizi də eyni aqibət gözləyir.

Neft və qaz satışından əldə edilən ABŞ dollarları hesabına qurulan iqtisadiyyatımızla qürrələnirik, sonra isə ABŞ-da təhsil alan mütəxəssisləri casus adlandırırıq. ABŞ düşməndirsə, gəlin Amerika



dollarından da imtina edək, razısınızmı? Düşmən valyutası bizim nəyimizə gərəkdir? Türkiyə lirəsindən, Rusiya rublubdan, Özbəkistan somudan, Qazaxıstan təngəsindən, Tacikistan somanisindən, Qırğızıstan somundan və s. qardaş ölkələrin valyutasından istifadə edək. "Yastığın altına" da onlardan yığaq. Əlbəttə, ilk növbədə Azərbaycan məmurları bunlarla razılaşmayacaqlar. Çünki onların Azərbaycan xalqından oğurlayaraq topladıqları dəfinə avro və dollardan ibarətdir.

Bəzən hətta "siyasətçilərimiz" populistcəsinə iddia edirlər ki, kimdi Amerika, kimdi Avropa! Amerikanın və Avropanın kim olduğunu bilmirsinizsə, bilənləri dinləyin. Cənablar, "İPone" telefonunun istehsalçısı olan "Apple" şirkətinin illik dövriyyəsi 4 trilyon dollara yaxındır. Azərbaycanın isə dövlət büdcəsi gələn il 37 milyard manata yaxın olacaq. Büdcəmiz 40 milyard dollar (manat yox, haaa...) olsa idi, "Apple"ın illik dövriyyəsindən 100 dəfə az olardı. "Ford"un bir SD-yə yerləşən inovasiya layihəsinin qiyməti Azərbaycanın dövlət büdcəsindən 20 dəfə çoxdur. Hələ mən büdcəmizi (37 milyard manat) ABŞ-ın dövlət büdcəsi (1,7 trilyon dollar) ilə müqayisə etmirəm.

Nəticə olaraq onu qeyd edək ki, ABŞ və Avropa ilə düşmənçilik Azərbaycan iqtisadiyyatına və cəmiyyətinə böyük zərbə olardı. Digər tərəfdən bu ölkəmizin dünyadan təcridinə gətirib çıxarar. Biz demirik Qərbin və Amerikanın dirijorluğu ilə oturub-durmalıyıq, xeyir, bu gün Azərbaycan xalqının mənafei nəyi tələb edirsə, biz onu etməliyik. Bu ölkələrlə mübahisə etmək olar, mövqeyini tədqid etmək olar, razılaşmamaq olar, amma onlarla düşmənçilik etmək olmaz! Necə olur, Rusiya 30 il torpaqlarımızı ermənilərin əli ilə işğalda saxladı, nə qədər itkilərə bais oldu, onunla dostuq, amma Amerikanın bir bəyanatına görə onunla düşmən olduq? Azərbaycanın Amerika və Avropa ilə münasibətləri ən azı Rusiya ilə münasibətlərdən daha üstün olmalıdır. Biz dünyada kimin yanında dayanmağımızın fərqində olmalıyıq. Çünki buna bizim ciddi ehtiyacımız var. Bzim Amerika və Avropa ilə düşmən olmağımız, Orta Asiyaya üz tutmağımız yalnız Rusiyanın dövlət siyasətinin mənafelərinə (söhbət xalqın və cəmiyyətin mənafeindən getmir) uyğun gəlir. Lakin bu hətta rus xalqının mənafeinə uyğun olsa belə, biz Azərbaycan xalqının mənafeindən çıxış etməliyik. Unutmayın, biz harda Azərbaycan xalqının mənafeinə zidd addımlar atmışıqsa, biz unutsaq da, tarix onu unutmayacaq. Ona görə ki, tarix köhnəldikcə durulur. Məsələn, Azərbaycanın bugünkü tarixi 40-50 ildən sonra dürüstləşəcək, hamı üçün tam həqiqət açıq şəkildə üzə çıxacaq. Bu gün isə tarixi hərə öz mövqeindən, öz baxış bucağından yazır. Yazın, yalan ayaq tutar, amma yeriməz.



Akif Nəsirli

## ABŞ: Bakı ilə əməkdaşlığa xitam vermək...

Azərbaycanla əməkdaşlığa xitam vermək ABŞ-ın maraqlarına zidd olardı.

Bunu ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller bu gün keçirdiyi brifinq zamanı deyib.



***"Biz heç vaxt deməmişik ki, Azərbaycanla əməkdaşlığı davam etdirmək fikrində deyilik. Bu, bizim maraqlarımıza, eləcə də regionda sülh və təhlükəsizlik maraqlarına ziddir"***, - deyə o bildirib.

Miller qeyd edib ki, ABŞ həm Azərbaycan, həm də Ermənistanla birbaşa əlaqələri davam etdirir və onları davamlı sülhü təmin etməyə çağırır.

***"Bu əlaqələr, diplomatik səylərimizin diqqət mərkəzində olmaqda davam edəcək"***, - deyə o bildirib.

Qeyd edək ki, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms Obrayen dekabrın 6-8-də Azərbaycanda səfərdə olacaq. O, ikitərəfli münasibətləri gücləndirmək və Azərbaycan və Ermənistan arasında sülhü dəstəkləmək üçün Bakıda Azərbaycan rəsmiləri ilə görüşəcək.



# Dövlətə və xalqa xidmət, yoxsa sui-istifadəyə bəraət?

Azərbaycanda əsl yazıçı Anar, əsl alim Həbibbəylidir desək, yanılmarıq. Bəs necə?! Hər ikisinin geniş maddi imkanları, ikincinin hətta 3-4 vəzifəsi və 3-4 kabineti də var. Təzahürata görə hər ikisi dövləti, xalqı, rəhbəri əşəddü-məhəbbətlə sevir. Nə gözəl! Hər ikisi qayğıkeşdir və hər ikisi ”yaxşılıq” etməkdən doymur ki, doymur. Bəh-bəh! Məsələn, Anar müəllimin ən böyük yaxşılığı AYB-ni saxlaması, Həbibbəylinin qlobal yaxşılığı isə AMEA-nı saxlamasıdır. Bu ”saxlamalar” əlahəzrətlərin ”yaxşılıq əlifbası”dır. Təəssüf ki, bu ”yaxşılığ”ın morfologiya və sintaksisi çox mürəkkəb, qarmaqarışıq və anlaşılmazdır.

Bu dahi şəxsiyyətlərin üzü hörmətinə bir tikə qara çörək də olsa, tapıb yeyirik, əlhəmdülillah! Əks halda, ”əzazil” dövlət hər iki qurumi qapayar və vətəndaşlar da acından ölərdilər, əstəğfirullah!

Bu səbəbdən də hər iki qurum rəhbərinə, onların sürücülərinə, köməkçilərinə, dostlarına, qohumlarına və adını çəkmədiyim digərlərinə daim səcdədə olmaq fərzi-kifayədir!

Bəli, Anar müəllim nəinki yazıçıların, hətta onların böyük, ”ailə qurmuş” övladlarının da qeydinə qalıb mənzil problemlərini həll edirmiş.

Təəssüf ki, nataraz və ədalətsiz ”qeydəqalma”ların, şəxsi zövqə uymaların cəmiyyəti narazılıq və nifrət burulğanına itələməsi hedonizmin zirvəsində olan 85 yaşlı yazarı narahat etmək gücündə deyil.

2-3 mənzili olanlara ev verilməsini AYB sədri belə əsaslandırıb:

”....Həmin adamlar da deyirlər ki, ilk evi 20 il əvvəl alıblar, indi isə övladları böyüyüb, ailə qurublar deyə əlavə evə ehtiyacları var. Mən nə deyim?! Deyim ki, yox, sənə ev vermirəm?!”

Hər şey bir tərəfə. Özlərini xalq yazarı, akademik və s. adlandıran şəxslərin öz ədalətsiz və çox vaxt məsuliyyətsiz əməllərinə haqq qazandırmaları dövlətə də, xalqa da, ünvanına xoş sözlər söylədikləri rəhbərə də ən ağır zərbədir.

Azərbaycan məsuliyyətsiz yazarların, özbaşına akademiklərin küt zərəbələri altında inildəməkdədir...

PS. Hiyləgərlik və riyakarlıq dürməyinə bükdüyünüz boyalı sözlər, təriflər, vədlər və mədhlərin sonunda özünüzə də faydası olmayacaq, çünki Allah sizin qəlblərinizə və əməllərinizə baxar!

***İdris Abbasov***

# Vüqar Qurbanov "vəzifə alveri" metodu ilə işləyir

## Metodun üstünlüyü "vəzifə alveri"ni sübut etməyin çətinliyidir

Azərbaycan vətəndaşları hazırda dövlətdən aldığı tibbi yardımdan məmnun deyil. Doğum yapana iki maması baxanda uşaq tərs gəldiyi kimi, ölkə səhiyyəsinə iki dövlət qurumunun - TƏBİB və Səhiyyə Nazirliyinin baxması, ”ya ondadır, ya bunda, halvası var dükanda” deyiminin məntiqinə bənzəyir.

Cənab Prezidentin siyasi iradəsinə uyğun olaraq ölkədə rüşvət və korrupsiyaya qarşı mübarizə tədbirlərinin getdikcə sərtləşməsi rüşvət və korrupsiya ilə məşğul olan üzdəniraq məmurlar rüşvət və korrupsiya metodunu ölkədə yeni yaranan stuasiyaya uyğunlaşdırmağa cəhd edirlər.



Hazırda bəzi dövlət qurumlarının fəndgir rəhbərləri vəzifə alverini əllə rüşvət vermək formasından imtina ediblər. Məsələn, yuxarı vəzifə sahibləri tabeliyində çalışan aşağı vəzifə sahiblərinə dövlətin onlara tapşırığı işi həvalə edirlər və onlar bu işi yerinə yetirdikdən sonra aşağı vəzifəli şəxslərə vəd verdikləri daha qazanclı kürsüdə əyləşdirilir. Əslində, dövlət layihəsi üçün ayrılan pul yuxarı orqan rəhbəri tərəfindən mənimsənilir, işlər teztələsik keyfiyyətsiz görülür.

Saytlar üzərindən apardığımız təhlil və ayrı-ayrı mənbədən daxil olan məlumatlara əsasən, bu üsuldan ən çox istifadə edən dövlət qurumlarından birinin Vüqar Qurbanovun icraçı direktor olduğu Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB) olduğu müəyyən edilib.

Qaldırılan məsələnin aktuallığını nəzərə alaraq, oxucuya aydın olsun deyə, ötən ilin oktaybr ayının 1-də qaçqınlar üçün istifadəyə verilmiş Hadrut Ailə Sağlamlıq Mərkəzinin (ASM) açılmasında baş tutmuş sövdələşmə üzərində dayanmaq vacib olduğu fikrinə gəlmişik. Artıq Hadrut ASM-in ərsəyə gəlməsindən bir ildən çox keçməsinə baxmayaraq, bu barədə xalq arasında xoşagəlməz hekayə hələ də danışılır.

İşin içində olan mənbənin dediyinə görə, Hadrut ASM TƏBİB-in icraçı direktoru Vüqar Qurbanovun əmri ilə yaradılıb, 6 otaqdan ibarət binada yerləşir, 12 nəfər həkim, orta və kiçik tibb işçisinin 6 min nəfər vətəndaşa xidmət etməsi nəzərdə tutulub. Yaradılan mərkəz bütün zəruri tibbi avadanlıqlar və vasitələrlə, reonomobil ambulansla təmin edilib. ASM Hadrut qəsəbəsində dövlət qurumlarında, təmir və tikinti şirkətlərində çalışan vətəndaşlara, bəzi hallarda hərbi xidmət müəssisələrində xidmət keçən hərbçilərə və onların ailələrinə səhiyyə xidməti göstərir.

Hadrut Ailə Sağlamlıq Mərkəzi Ağalı Ailə Sağlamlıq Mərkəzindən sonra işğaldan azad olunan ərazilərdə fəaliyyətə başlayan ikinci səhiyyə xidməti müəssisəsidir. Mötəbər mənbədən əldə etdiyimiz məlumata görə, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov Hadrut Ailə Sağlamlıq Mərkəzinin (ASM) tikintisi ilə bağlı bütün xərcləri Beyləqan Rayon Mərkəzi xəstəxanasının direktoru işləmiş Nurəngiz Bəşirovaya ödətdirib.

TƏBİB sədri Hadrit Ailə Sağlamlıq Mərkəzini Beyləqan MX-nin direktoru Nurəngiz Bəşirovaya tikdirdiyi barədə məlumatı rəhbərlikdən gizlədib, bu barədə yuxarı orqanlara düzgün məlumat verməyib və Hadrut ASM-in təşkil edilməsi xərclərinin Beyləqan MX-in direktoru Nurəngiz Bəşirovanın vəsaiti hesabına ödənməsi barədə əsl həqiqət dövlət başçısından gizlədilib.

O da bildirilir ki, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov Beyləqan Rayon Xəstəxanasının direktoru ilə əvvəlcədən razılaşıb ki, o, Hadrut Ailə Sağlamlıq Mərkəzini (ASM) öz pul vəsaiti hesabına tikdirib təhvil verəndən sonra, o, daha yaxşı gəlirli tibb müəssisəsinə direktor təyin ediləcək...

Beləliklə, rüşvətxorluqla məşğul olduğu barədə xəbərlər ölkə gündəmini zəbt edən TƏBİB-in icraçı direktor Vüqar Qurbanovun Hadrut Ailə Sağlamlıq Mərkəzi üzərində vəzifə alveri etməsi onun bu vəzifəyə layiq kadr olmadığını təsdiqləyir. Əslində, icraçı direktor çox hörmətli Vüqar bəyin dövlət vəzifəsi tutan şəxsə ütanc gətirən işi bunu nunla bitmir.

TƏBİB sədrinin bu il yayda, yaxın ətrafının verdiyi xəbərə görə, icraçı direktor qızına möhtəşəm və bahalı keçirdiyi toy məclisinin xərcinin bir hissəsini də Beyləqan MX-nın direktor Nurəngiz Bəşirovaya ödətdirib! Bu fakt da TƏBİB sədrinin qulluq mövqeyindən sui-istifadə etdiyini təsdiq edir və eyni zamanda, bu sistemə nəzarət edən dövlət orqanı rəhbərliyini xəbərdar edir...

Qızının toyundan sonra qısa müddətdə Vüqar Qurbanov Beyləqan MX-in direktor Nurəngiz Bəşirovanın çəkdiyi ”ağır zəhməti” yüksək qiymətləndirir və Bakı şəhər 3 saylı klinik xəstəxananın direktorunu əsassız olaraq vəzifədən çıxarır və onun yerinə Nurəngiz Bəşirovanı direktor təyin edir...

Hazırda Vüqar Qurbanov tərəfindən cəmi 6 aydır Bakı şəhər 3 saylı klinik xəstəxanasına direktor vəzifəsinə təyin etdiyi Nurəngiz Bəşirova köhnə rüşvətxorluq əməlinə sadiq qalaraq, Xocavənd və Beyləqan rayon Mərkəzi Xəstəxanasında təşkil etdiyi rüşvət şəbəkəsini (N. Bəşirova hər iki xəstəxanadan rüşvətxorluğa görə qovulub) Bakı şəhər 3 saylı Sabunçu klinik xəstəxanasında təşkil edib...

Əhali APA-ya ”Məni 3 saylı klinikaya TƏBİB yox, Mehriban Əliyeva direktor təyin edib” sərlövhəli müsahibə verən Nurəngiz Bəşirova rüşvətxorluq əməlinə haqq qazandırmaq üçün Birinci vitse-prezidentin adını çəkməsini yalan, böhtandan ibarət olan çox uğursuz cəhddən başqa bir şey hesab etmir!..

Əksinə, Nurəngiz Bəşirovanın ardıcıl olaraq Xocavənd, Beyləqan xəstəxanalarının baş həkimi, direktoru vəzifəsindən əmək kollektivi tərəfindən rüşvətxor kimi qovulub ifşa olması direktorun arxasında durub, onu xəstəxanalar üzrə baş həkim, direktor təyin etdirən şəxs, şahidlərin dediyinə görə, qohumluq əlaqəsinə görə, FHN rəhbəri K. Heydərovun adı çəkilir...

***Səkinə***

# Məhkəmələr hüquqi yardım hüququnu hüquqdan sui-istifadə "azadlığı" sayır

## Aytən Oruczadə, Cahangir Yusifov, Rəşid Səmədovun "qərardad plagiatlığı"məlumatına

Məhkəmə hüquq sistemində islahatlar elə "dərinləşib" ki, məhkəmə hakimiyyəti Konstitusiyanın 60 və 61-ci maddələri ilə təminat verilən məhkəmə təminatı, hüquqi yardım hüququnu "hüquqdan sui-istifadə azadlığı" kimi "patentləşdirərək" qadağan edib. Gerçəkdə Konstitusiya hüquq və azadlıqlara qadağa "hüququ", "azadlığı" kimi izah və tətbiq olunur. İnandırıcı olmasa da, 1-ci dərəcəli Qarabağ əlilinə qarşı məhkəmələrin "hüquqdan sui-istifadə" qərardadları "əsas qanun" rolundadır. Hətta qərardad oğurluğu, plagiatlığı faktları var : Bakı Apelyasiya Məhkəməsinin Şərafət Məmmədova, Pərviz Hüseynov, Cahangir Yusifovdan ibarət üçlüyünün 25.04.2023-cü il , 02.05.2023-cü il , 05.07.2023-cü il tarixli 1-ci dərəcəli Qarabağ əlilinə dövlət hesabına vəkil ayrılmasından imtina barədə qərardadlarını Aytən Oruczadə, Rəşid Səmədov , Cahangir Yusifovdan ibarət üçlük 01.11.2023-cü il və 24.11. 2023-cü il tarixli qərardadlarına xırda ixtisarlarla olduğu kimi köçürüblər. Elmdə, bədii ədəbiyyatda və s. buna plagiat-oğurluq deyilir, məhkəmə hakimləri isə qərardad oğurluğu, plagiatlığı ediblər. Düzdür, Cahangir Yusifov "hüquqdan sui-istifadə" qərardadının hər iki heyətlə həmmüəllifidir, amma məhkəmə hüquq sistemində belə oğurluq qanunsuz sayılır və cəzasını Məhkəmə Hüquq Şurası ağır formada verir(mi?). Bəs plagiat necə aşkarlanıb? Elmdə, bədii ədəbiyyatda və s. olduğu kimi, mətni oxumaqla və tarixlə . Qərardadların plagiatlığını onların eyniliyi və istinad olunan hüquq normaları sübut edir. Cahangir Yusifov Şərafət Məmmədova və Pərviz Hüseynovla "icad etdiyi" hüquqdan sui-istifadə, kassasiya şikayətinə qadağanın əsas insan və vətəndaş hüquqlarından sayılması" qərardadlarında istinad olunan Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin ( MPM) 67.2 və 121.2 maddələri əsasında Aytən Oruczadə və Rəşid Səmədovla birlikdə təkrar "patentləşdirilə" bilməz(di)! Niyə? MPM-ə edilən 09.06.2023-cü il tarixli dəyişikliklə 67.2 və 121.2 maddələri ləğv olunub! Ləğv



olunmuş maddələrin 1-ci dərəcəli Qarabağ qazisinin kassasiya, məhkəmə təminatı hüququna "hüquqdan sui-istifadə" kimi əsassız tətbiqi yalnız və yalnız qərəzdən, vicdansızlıqdan, qıraqdan sifarişdən, antihumanistlikdən, ədalətsizlikdən, yüksək hakim adını 3-5 manata dəyişməkdən qaynaqlanır. Qərəzli ayrı-seçkiliyə baxın, 1-ci dərəcəli Qarabağ əlili hüquqi yardımsız, vəkilsiz xəstəxanada , qarşı yan-DİN VK-nın özü ( intizam komissiyasının üzvü Əlirza Həbilov , Orxan Qılman oğlu Babayev) ilə , DSMF-in pensiya filialı DSMF-in tərkibində qanunsuz fəaliyyət göstərən məhkəmə filialı- 39 saylı vəkil bürosu (filialın və büronun rəhbəri vəkil Abuzər Mütəllimov, müavini , vəkil Roman İsmayılov, departament müdiri , vəkil Yeganə Məmmədova, baş, aparıcı mütəxəssislər-vəkil Emil İsgəndərli, Rüstəm Şikarlı, ... toplam 39 vəkil-məmur ordusu!) ilə təmsil olunub. Məhkəmə isə 1-ci dərəcəli əlilə hüquqi yardımdan imtina edir ki, tərəflərin hüquq bərabərliyi prinsipi pozulacaq, dövlət büdcəsi ziyan çəkəcək.(?). Elə bilirsiniz şişirtmədir, yox, məhkəmə aktları ilə bu hüquq bərabərsizliyi "patentləşdirilib".24.11.2023-cü il tarixli "gülü burnunda" oğurluq qərardadda "məhkəmə kollegiyası qeyd etməyi zəruri hesab edib ki, dövlət hesabına təyin edilən vəkilə ödəniş dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirildiyindən , həmin məbləğdən istifadə olunması hallarında məhkəmələr tərəfindən xüsusi həssaslıq göstərilməli, SUİ-İSTİFADƏ hallarının qarşısı alınmalıdır."

Məhkəmə təminatı, hüquqi yardım , sosial təminat, kassasiya (şikayəti) hüququndan yararlanmağı HÜQUQDAN SUİ-İSTİFADƏ azadlığı kimi aktlaşdıran Konstitusiyadan, BMT Konvesiyasından xəbərsiz olan məhkəmənin, deyəsən, əlillərin hüquqi durumundan da xəbəri yoxdur. Bilmir ki, əlilə vəkil nəyə görə gərəkdir?! Vəkil əlilin hüququnu müdafiə etməkdən yanadır, əlil axı orqanizmin funksiyasını itirib, günü yataqda, xəstəxanada keçir, ən azı, buna görə əlilə dövlət hesabına vəkil ayırmaq yerinə, sosial təminat, məhkəmə müdafiəsi, hüquqi yardım hüququna qadağa qoymaq hansı Konstitusiyaya, BMT-nin əlillər barədə Konvensiyasına sığır? Bu, yalnız olmayan vicdana sığar.

Əlilə vəkil xəstə olduğuna, yataqda olduğuna görə LAZIM gəlir, bəs bu LAZIM niyə məhkəməyə gə(tiri)lmir?

***Məğrur Bədəlsoy***

*P.S. Ölkənin ilk müstəqil informasiya agentliyi sosial təminat, məhkəmə təminatı hüququna qadağadan, vəkillə dövlət hesabına təmin olunmamaqdan şikayətə yalnız VƏKİLLƏ müraciət etdikdə baxılacağını, işıqlandırılacağını bildirib...*

# Şəhid, əlillərə kommunal, nəqliyyat və digər xidmətlər əvəzi kompensasiyanı yenə hökumət yeyəcək?

## DSMF yetkililəri "sosial müavinət"lə güzəşt əvəzi müavinəti bilərəkdən ayıra bilmir

Qarabağ savaşı veteranları, əlilləri, şəhid ailələri 2002-ci ilə kimi kommunal, nəqliyyat , rabitə xidməti haqlarını ödəməkdən, notariat əməliyyatları zamanı rüsum ödəməkdən azad idilər. Hökumət bu "azadlığı" savaş adamlarına çox gördü, Azərbaycan Respublikasının Prezidenti 26.12.2001 tarixli 613 saylı " Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunmasının təmin edilməsi haqqında" Fərmanla vətəndaşlara kommunal, nəqliyyat və digər xidmətlər üzrə VERİLƏN GÜZƏŞTLƏRİN müvafiq MÜAVİNƏTLƏRLƏ ƏVƏZ olunması ilə əlaqədar AZTƏMİNATLI AİLƏLƏRİN SOSİAL MÜDAFİƏSİNİ təmin etmək məqsədi ilə Qarabağ əlillərinə 130 min manat, veteranlarına 55 min manat , şəhid ailəsi üzvlərinin hər birinə 60 min manat müavinət verilməsini qərara aldı. Veteranlara verilən müavinət 22.01.2007 tarixli, 514 saylı, şəhid ailələrinə verilən müavinətsə 31.12.2020 tarixli 1223 nömrəli fərmanlarla ləğv edildi. Qarabağ əlillərinə verilən 130 min manat isə hələ də qüvvədədir, 05.01.2021 tarixli, 1244 nömrəli Prezident fərmanı ilə "130 min" 26 manatla əvəz olunub, 12.11.2022-ci il tarixli, 1878 nömrəli fərmanla "əlillər" sözü "əlilliyi müəyyən edilmiş şəxslər" ifadəsi ilə əvəzlənib. ( yəqin bu il də "orqanizmin funksiyasının 31-100 faizi pozulmuş şəxslər"lə əvəz olunma "diqqət və qayğısı" qüvvəyə minər- M.B.) Di gəl, 26 manatı da DSMF-in "sosial məmurları" ciblərinə uyğun izah edib vermirlər. Məmurun yeyinti izahına baxın, prezident fərmanı ilə ləğv edilən güzəşt əvəzinə müavinəti "sosial müavinət" sayıb, əmək pensiyaçılarına şamil edilmədiyini sırıyırlar. Onlarla illərdir bu cibə uyğun izaha son qoyulmur. Fərmanın icrasını 08.01.2002 tarixli qərarla təmin edən NK da 22 ildir Qarabağ savaşı əlillərinə ayrılan cüzi müavinətin təyinatı üzrə verilməməsinə qiymət vrrib, son qoymur. Maliyyə Nazirliyinin, Hesablama Palatasının da dövlət büdcəsinin məmurun cibi ilə dəyişik salınmasına reaksiyası "bir atımlıq barıt" effekti yetkisi bağışlayır. Hər iki qurum "qıcanır", amma "vurmur", sadəcə payını götürüb, 26 manatın pensiya ilə bir yerdə verildiyini, ona görə də "görünmədiyini" bildirir. Deyəsən, "inanclı xidmət"dir, hökumətin "sağ əllə" verdiyini "sol əli"- əlillər bilmir. "Dəmir yumruq" yiyəsinə üz tutmaq da sonuc vermir, əlilin-qazinin öz başında çatlayır.

Prezidentin Qarabağ əlillərinə 29.12.2000 tarixli, 597 saylı "Əlil olmuş və digər kateqoriyalardan olan bir qrup aztəminatlı vətəndaşlara dövlət yardımının artırılması haqqında" sərəncamı ilə 1-ci, 2-ci, 3-cü dərəcəli Qarabağ, 20 Yanvar əlillərinə uyğun olaraq 50 min, 60 min , 70 min manat aylıq müavinətin verilməsindən də DSMF-in pensiya təminatı qurumları eyni əsasla - müavinəti "sosial müavinət" saymaqla imtina edir. Heç sərəncamın "bəxtinə" onu qəbul etmiş Prezidentin qələmi ilə denominasiya, "əlil" sözünün "əlilliyi olan şəxs" ifadəsi ilə əvəz olunması "diqqət və qayğısı" da düşmür. Axı düşsə, 23 ildir verilməyən cüzi aylıq müavinəti yeyə bilməyəcəklər.

Hökumət verən müavinətin azlığına-çoxluğuna baxmazlarməsələ dönüb. Amma axı müavinəti , az oldu- çox oldu, nəzərdə tutulan aztəminatlı şəxslər yox, çoxrüşvətli məmurlar yeyir! "Müavinət", "müavin" sözləri ərəbcədən götürülüb, türkçəmizdə "yardım", "yardımçı" anlamındadır. "Sosial müavinət" anlayışı ilə müavinəti, yardımı bilərəkdən qarışdırmaq yeyini amacı daşıyır. Əvvəllər işlənən "sosial pensiya" anlayışı 2006-cı ildən "sosial müavinət"lə əvəz olunub və bu əvəzetmədən "sosial məmurlar" yeyinti amacı ilə peşəkarlıqla yararlanırlar. Prezidentin 26.12.2001 tarixli 613 saylı fərmanında "sosial pensiyaçılar" da 6 manatlıq müavinətlə diqqətdən qıraqda qalmayıb. Amma indiki sosial müavinət alanlara, keçmiş sosial pensiyaçılara da bu 6 manat çox görülür.

Qazilərin, şəhidlərin, əlillərin payını yemək peşəkarlığında "sosial yeyimli" hökumətə çatan olmaz. Adı əlilin, dadı məmurun, əcəb "diqqətcil, qayğıkeş" hökumətdir!

***Məğrur Bədəlsoy***




# Rüstəm Kərimli apellyasiya instansiyasının ləğv etdiyi işini 4 ildir gizlədir

## Bakı İnzibati Məhkəməsi yuxarı instansiyanın ləğv etdiyi işə 9 ildir baxmır

Torpaq mülkiyyəti hüququ Konstitusiya ilə, "Torpaq islahatı haqqında" , Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" və s. normativ hüquqi aktlarla təminat verilən hüquqdur. Qarabağ savaşı əlillərinə bələdiyyədən bir dəfə pulsuz, dövlətdən iki pay torpaq verilməsi də qanunvericiliyin tələbidir. Di gəl, nə icra hakimiyyətləri, nə də bələdiyyələr bu hüquqa sayğı göstərir. Məhkəməyə müraciət edəndə isə...

Bakı şəhəri, Nərimanov bələdiyyəsinin 1-ci dərəcəli Qarabağ əlili rayon sakininə Nəsib bəy Yusifbəyli küçəsinin sonu , Fətəli Xan Xoyski- 1 ünvanının arasındakı istifadəsiz torpaq sahəsini verməkdən imtinasından 2 saylı Bakı İnzibati İqtisadi Məhkəməsində ( 2 BİİM) iddia qaldırılıb. Hakim Rüstəm Kərimli 15.10.2019 tarixli qərardadla gizlincə icraata xitam verib. Bakı Apellyasiya Məhkəməsi 05.03.2020 tarixli qərardadla aşağı instansiyanın qərardadını ləğv edib və işi baxmağa Bakı İnzibati Məhkəməsinə göndərib. 3 il yarım keçsə də işin "bəxtinə" yenidən baxılmaq yazılmayıb. Heç demə Sabunçu məhkəməsində hakimlik yapan Rüstəm Kərimli Ədliyyə Nazirliyindəki tanışlarının araçılığı ilə özünü Bakı İnzibati Məhkəməsinə ezam etdirib və ləğv edilmiş işini icraatına götürüb, 4 ilə yaxındır gizlədir.(?) Hakimin işi gizlətməsi cinayəti elə açıq-aşkardır ki, Məhkəmə Hüquq Şurasına yalnız fakta qiymət verməк qalır. Özbaşınalığa baxın, hakim R. Kərimli 2-1(112)- 5191/2020 saylı işi "elektron məhkəmə" informasiya sistemindən tamam silib!(?). Hələ də nə iş sistemə bərpa edilir, nə də yuxarı instansiyanın məcburi göstərişinə əsasən işə yenidən baxılır.

Bakı İnzibati Məhkəməsinin apellyasiya instansiyasının ləğv etdiyi işlərə yenidən baxmaqdan imtinası bu "gizliliklə" bitmir. Birinci instansiyanın 06.05.2015 tarixli DSMF-ə qarşı qərardadını Bakı Apellyasiya Məhkəməsi 02.07.2015 tarixli, 2-1(103)-1098/15 saylı qərardadla ləğv edib və işi sonrakı prosessual hərəkətlərin edilməsi üçün 1 BİİM-ə qaytarıb. 9-cu ildir işə yenidən baxılması gerçəkləşmir.

Belə məhkəmə təminatı hüququ ilə hansı maddi hüququ, mülkiyyət hüququnu əldə etmək olar? Bircə onu deyək ki, Rüstəm Kərimlinin hakim adından rüşvət, korrupsiya amacı ilə yararlanaraq işi gizlətməsi mübahisə predmeti olan torpaq sahəsinin gizlincə satılması ilə sonuclanıb. Gizlin satışdan varlananlar isə Nərimanov RİH, bələdiyyə, ƏMDX və... təbii ki, hakim Rüstəm Kərimli olub.

İndi söz Məhkəmə Hüquq Şurasındadır: yuxarı instansiyanın ləğv etdiyi işlərin qatı nə vaxta qədər "tam gizli" qrifi ilə açılmayacaq?

***M.Bədəlsoy***



# “QAÇ NİKOL, BƏRK QAÇ”

## Saakaşvili Paşinyana müraciət etdi

Gürcüstanın keçmiş Prezidenti Mixail Saakaşvili növbəti dəfə Ermənistanın Baş naziri Nikol Paşinyana müraciət edib.

Özünün “feysbuk” səhifəsində paylaşım edən Saakaşvili Paşinyana Rusiyadan qurtulub Avropa İttifaqına və NATO-ya “qaçmağı” məsləhət görüb: “Rusiya demək olar ki, bütün Ermənistan kənd təsərrüfatı məhsullarının və erməni konyakının idxalına qadağa qoyub Bu qadağa Paşinyan üçün bütün qırmızı işıqları yandırmalıdır. Putin erməni konyakını yox, Paşinyanın özünü



sevmir və bu embarqo onu hakimiyyətdən sıxışdırmaq üçün növbəti addımdır. Mən bunu Ermənistanın Baş naziri üçün bir daha təkrar etmək istəyirəm. Hörmətli Nikol, qaç, bərk qaç, KTMT-dən, Avrasiya İqtisadi İttifaqından arxaya baxmadan qaç, Avropa Birliyinə, NATO-ya, yeni regional birliklərə qaç. Amma ən əsası Rusiyadan uzaqlaşın, özünüzü və erməni dövlətçiliyini xilas edin! Putin bulldoq kimidir. Dişlərini sıxana qədər dişləyir və buraxmır. Sağ qalmaq üçün bundan uzaqlaşın. Əminəm ki, hələ də gec deyil. Tərəddüd etməyi və yırğalanmağı dayandırın. Gecikmək ölümə bərabərdir!”

# 5-ci kolon mövcuddurmu və mövcuddursa o, necə işləyir?

## (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümunəsində)

Üçüncü yazı

Öncə xatırladım ki, bu silsilədən olan və noyabrın 14-də dərc olunmuş ikinci yazı yetərincə təlaşlı reaksiyalar doğurdu, amma hələlik məqsəd onlara münasibət bildirmək deyil. Odur ki, qayıdaq həmin yazının sonundakı suallara. Bu yazının məqsədi də onlara və digər suallara cavab axtarmaqdır.

Qısaca xatırladım ki, həmin suallar Zakir Həsənovun yoxsa Kərim Vəliyevin MN-dəki indiki xəyanətkar ierarxiyaya rəhbərlik etməsi, halhazırda həbsdə olduğu deyilən Nəzakət Məmmədovanın erməni ”axtarışlarının” arxasında duranlar və Elçin Xəlilov (Kadrlar İdarəsi), Namiq Poladov (Katiblik) və Tamara Mirzoyeva (Katiblik) ”üçbucağının” digər ”bucaqları” haqdadır.

Anlaşılmazlıq yaratmamaq və oxunmanı sadələşdirmək üçün bu ”üçbucağı” şərti olaraq ”Tamara Mirzoyeva üçbucağı” adlandıraq və əslində Tamara Mirzoyeva həqiqətən buna layiqdir. Bütün ailə üzvlərini MN-nin müxtəlif strukturlarına yerləşdirmiş, Zakir Həsənovun əvəzindən əmrlər yayan xanımı kiçiltməyək.

Amma bütün bu struktur iki mühüm element olmadan uzun müddət fəaliyyət göstərə bilməz: ifşa olunar, dağıdılar və onun üzvləri cəzalandırılar. Bunlar nazirliyin Hüquq və Daxili Təhlükəsizlik idarələridir. Çünki ölkədəki reallıq şəraitində hüquq törədilən bütün qanunsuzluqların, o cümlədən də cinayətlərin leqallaşdırılmasına xidmət edir.

Daxili Təhlükəsizlik İdarəsi isə adından bəlli olduğu kimi nazirliyin fəaliyyətini daxili təhdidlərdən qorumalıdır. Nazirliyin yoxsa onun daxilindəki 5-ci kolonun? Bu sualın cavabını axtarmağa və Tərtər qətliamında iştiraka görə həmin idarədən kənarlaşdırılmış Ramil Əsgərovun (Nəcməddin Sadıkovun bacısı oğlu) yerinə gətirilmiş azərbaycansayağı ”ceyms bondun” kimliyinə və fəaliyyətinə bir qədər sonra qayıdacağıq.

Hələlik isə: Tərtər qətliamında fəal iştiraka görə ən azı 3 əməkdaşı həbs olunmuş Hüquq İdarəsinin təhqiqat şöbəsinin işdən qovulmuş rəisi Elçin Əliyevin nazirliyə qaytarılmasında kim, necə və hansı rolu oynayıb? Özü də nə az, nə çox - Hüquq İdarəsinin rəisi vəzifəsinə. Öncə əslində heç də təəccüblü olmayan faktın özünə diqqət yetirək.

Xatırladım ki, Tərtər qətliamı ərəfəsində və cinayət törədilən zaman MN Hüquq İdarəsinin rəisi və qətliamın əsas 3 təşkilatçısından biri Azərbaycanda hərbi prokurorluğun yaradıcısı sayılan Rauf Kişiyev olub. Hal-hazırda o, Ali Məhkəmədə sektor müdiri vəzifəsində çalışır. Ümumiyyətlə, bu vəzifəyə təyin olunanların çox maraqlı və oxşar fəaliyyət yolu var.

Məsələn, Rauf Kişiyevdən sonra 2019-cu ildə həmin vəzifəyə təyin olunan Emin Əzimzadə (Nəcməddin Sadıkovun çox yaxın adamı) Azərbaycanın İrandakı səfirliyində hərbi attaşe kimi xidmət edərkən İranın dövlət qurumları tərəfindən hansısa şübhəli dini qruplarla əlaqədə ifşa olunur və rəsmi Tehran Bakıdan onun geriyə çağrılmasını tələb edir. Emin Əzimzadə səs-küy salınmadan geri qaytarılır və ardınca...

... Hüquq İdarəsinin rəisi vəzifəsinə yüksəlir. Hal-hazırda o, Milli Məclisin aparatında işləyir. Maraqlıdır, elə deyilmi? Biri Ali Məhkəmədə, digəri isə ali qanunverici orqanda. Bundan sonra yuxarıda qeyd edildiyi kimi Tərtər cinayətindən sonra vurularaq tərxis olunan Elçin Əliyev hərbi xidmətə qayıdaraq əvvəllər şöbə rəisi olduğu idarənin artıq rəisi vəzifəsinə təyin olunur.

Amma ondan əvvəl Elçin Əliyev xidmətə bərpa olunarkən ilk olaraq Daxili Təhlükəsizlik İdarəsində (lütfən, bu məqamı yaxşı yadda saxlayın) şöbə rəisi vəzifəsinə gətirilir. Maraqlı məqamlardan biri də budur ki, belə ”qiymətli” kadrların təyinatına dövlətin digər məsul qurumları necə razılıq verib və ya bunları görməzdən gəlib? Məsələn, Prezident Administrasiyası və DTX.




Yoxsa doğrudanmı dövlətin ən mühüm qurumları da 5-ci kolonun girovluğundadır və ya... elə onun strukturunda? Necə olur ki, MN Daxili Təhlükəsizlik İdarəsinin rəisi, bütün bu proseslərdə kölgədə qaldığını düşünən ”milli ceyms bond” (vəd etdiyim kimi, onun haqqında bir qədər sonra və daha ətraflı) özünün iddia etdiyi kimi, DTX kimi orqana təsir edir?

Bunu adi bir lovğalıq kimi də qəbul etmək olardı əlbəttə, amma bəzi faktlar belə yanaşmağa imkan vermir. Məsələn, Tərtər qətliamını törətmiş çətədə (ilk baxışdan) əhəmiyyətsiz və səviyyəsiz bir məxluq DTX-da ona qarşı ifadə vermiş şəxsi çəkinmədən telefon vasitəsilə təhdid edirsə və ya Tərtər cinayətkarlarından olan Hilal Nəcəfovun çox yaxın qohumu bu günədək həmin orqanda çalışırsa, onda vəziyyət düşündüyümüzdən daha acınacaqlıdır...

Mən hələ ”Azərbaycanın əsgəri zəfərinin memarı” kimi Türkiyədəki piarından sonra bir müddətə kölgəyə çəkilmiş Xanlar Vəliyevin qohum-əqrabasını demirəm. Tərtər qatilləri olan generallar bu gün çəkinmədən İlham Əliyevin onlara toxunacağı halda dövlət çevrilişi ilə üzləşəcəyini iddia edirlərsə deməli, vəziyyətimiz ümumiyyətlə faciəvidir. Bu haqda isə hələ xeyli əvvəl xəbərdarlıq etmişdik.

Nəhayət, əgər Nəzakət Məmmədova həqiqətən həbs olunubsa və həqiqətən ona qarşı dövlətə xəyanət ittihamı irəli sürülübsə, o zaman onun fəaliyyətini koordinasiya edən ”ceyms bond” nədən toxunulmaz qalmaqda və hətta at oynatmaqdadır. Unutmayaq ki, məhz həmin ”ceym bondun” təlimatları əsasında çətənin ”əl-ayağına dolaşanlar” erməni kökənli olmaqda şərlənirdilər.

Məsələn, MN Kəşfiyyat Baş idarəsinin rəis müavini, general-mayor Rauf İsmayılov (həm də onun həyat yoldaşı) və həmin idarənin rəisinin köməkçisi olmuş mayor Fərid Qəribov müvafiq olaraq durmadan Nəzakət Məmmədova və Tofiq Şahmuradov tərəfindən erməni olmaqda şərlənirdilər.

Dünən isə analoji addım Tərtər qətliamını fasiləsiz olaraq araşdıran Qurban Məmmədlinin ünvanına irəli sürüldü. Məlum materialın son dərəcə qeyri-peşəkar feyk olması ilə işim yoxdur, amma bütün bu fəaliyyətin müəllifinin necə deyərlər, qulaqları artıq dəqiq göründü. Odur ki, özünü az qala boz kardinal sayan qondarma ”ceym bondu” tezliklə səngərdən çıxarıb sizlərə təqdim etməli olacağam.

Növbəti yazıda həm də Tərtər qatilləri olan generalların dövlət çevrilişi təhdidləri, bunun səbəbləri, onların qruplaşmaları, həmin qruplaşmalara daxil olanların kimliyi ilə və s. məsələlərlə yaxından tanış ola biləcəksiniz.

(davamı olacaq)

**Ərəstun Oruclu**

# QƏRB RUSİYANIN MƏĞLUBİYYƏTİNİ İSTƏYİRMİ?

**ABŞ və Avropanın əsl problemi Rusiya deyil...**



Rusiya Ukraynaya müdaxilə etdikdən sonra ABŞ başda olmaqla Qərb dünyası Rusiyanın bu müharibədə qalib gələcəyinə imkan verməyəcəklərini dəfələrlə bəyan ediblər. Ancaq onların Ukraynaya göstərdikləri hərbi yardımların intensivliyinə və həcminə diqqət etdikdə sözlərilə əməlləri arasında ciddi fərq əyani şəkildə görünür. Hələ indiyədək Ukrayna ordusu lazımı sayda uzunmənzilli raketlərlə, Hava Hücumundan Müdafiə sistemləri, artilleriya qurğuları və mərmilərlə təchiz edilməyib.

Digər tərəfdən, Ukraynaya "F-16" qırıcı təyyarələrinin nə zaman və hansı miqdarda verilməsi barəsində müzakirələr davam etsə də, bu istiqamətdə əhəmiyyətli irəliləyiş yoxdur. Hələlik ilk baxışdan belə təsəvvür yarana bilər ki, Qərbin Ukraynaya göstərdiyi zəif dəstək Rusiyanın döyüş mövqeyini gücləndirib. Lakin müharibə uzanacağı təqdirdə vəziyyət dəfələrlə dəyişə bilər. Artıq bir neçə aydır ki, Qərb KİV-ləri öz hökumətlərinin Ukrayna ilə bağlı strategiyasını sərt tənqid edir, onları daha qətiyyətli davranmağa çağırırlar. Bu yaxınlarda Böyük Britaniyanın nüfuzlu "The Economist" nəşrinin "Görünür, Putin ən azı hələlik Ukraynada qalib gəlir" başlıqlı məqaləsində ABŞ və Avropa fəaliyyətsizlikdə qınanırlar.

Lakin bütün bunlara baxmayaraq, Qərb mətbuatı və analitikləri bu qanlı müharibənin pərdə arxasınıdak həqiqətlərin üstündən sükutla keçirlər və əsasən mənzərənin ümumi təsviri ilə kifayətlənirlər. Məsələn, "The Economist"-in sözügedən məqaləsində yazılır: "Qərb Putini məyus etmək üçün çox şey edə bilərdi - istəsəydi Rusiyanı dəflərlə üstələyən sənayesini və maliyyə resurslarını işə salardı. Lakin fatalizm, saymamazlıq və strateji miqyasda düşünə bilməmək ona mane olur."

Yəni, əslində bütün Qərb mediası Ukrayna müharibəsindəki ümumi vəziyyəti təxminən bu cür şərh edir. Sadəcə olaraq bu tip məqalələrdə həqiqət deyilirmiş kimi təsəvvür yaradılır, əslində isə dərində yatan böyük həqiqətlərin ört-basdır olunmasına çalışılır və kimsə Ukraynanın Qərb üçün geostrateji alət olduğunu söyləmir. İndi artıq bəlli olur ki, ABŞ və Avropa müxtəlif bəhanələrlə Ukraynaya vəd etdikləri silah və maliyyə yardımını tam həcmdə çatdırmaq niyyətində deyillər. Bir çox mətləblərin üstü açılandan sonra Qərb mətbuatı obyektivlik görüntüsü vermək naminə müəyyən tənqidi fikirlər səsləndirməyə başlayır. Beynəlxalq ictimai şüura təsir etmək üçün elə təsəvvür yaradırlar ki, guya Amerika və Avropanın uzağa hesablanmış geniş strateji planları yoxdur və onlar sanki baş verən hadisələrin arxasınca yürüyürlər. Avropa Birliyi Ukraynaya 50 milyard avro vəd verib, lakin deyirlər ki, bəs Macarıstan bu ödənişi gecikdirir (Çünki AB-də hər hansı qərarın qüvvəyə minməsi üçün onu hamı yekdilliklə dəstəkləməlidir.). Amerikada isə Baydenin 60 milyard dollar həcmindəki yardımı Konqresdəki respublikaçıların etirazı ucbatından əngəllənib. Göründüyü kimi, elə mexanizm qurulub ki, istənilən vaxt əsaslı arqument gətirə bilsinlər.

Putinin Ukraynaya hücumundan 21 ay ötüb və bu müddət ərzində lazım gələrdisə Qərbin nəhəng sənayesi Ukraynanın ehtiyaclarının ödənilməsinə yönələrdi. Təbii, bu fikirlər Avropada da səslənir, amma heç kim demir ki, Putinin güclənməsinə niyə imkan verildi. Niyə Qərb öz potensialını ortaya qoymur?

ABŞ və Avropa Rusiyanı güclü iqtisadiyyata və möhtəşəm orduya malik bir dövlət kimi görmək istəmir və buna imkan da verilmir. Amma Rusiyanın Ukraynaya məğlub olması və sonrakı mərhələdə onun parçalanması Qərbin nəyinə lazımdır? Məgər Qərbin əsl problemi Rusiyadır? Xeyr! Rusiya Qərblə iqtisadi və texnoloji rəqabət apar biləcək səviyyədən çox uzaqdır.

Ukraynanın Rusiya ilə müqayisədə böyük silah istehsalı sənayesi yoxdur və ona görə də onun Qərbə ehtiyacı var. Kollektiv Qərbin böyük geostrateji məqsədinin nədən ibarət olmasına gəldikdə isə, heç şübhəsiz ki, onlar həmişə "divide et impera" ("parçala, hökm sür") devizinə sadiqdirlər. Onlar üçün Rusiya birbaşa elə də çətin problem deyil. Onun öhdəsindən gəlmək üçün Ukraynaya sanballı yardım göstərmək yetərlidir. Rusiyanın artıq geriyə yolu yoxdur, o, mütləq döyüşməlidir. Amerika və Avropa Rusiyanı Ukrayna vasitəsilə taqətdən sala bilər. Və əslində bəlkə də məhz bu həyata keçirilir.

Heç şübhəsiz ki, ABŞ və NATO Rusiya ordusunun bu müharibədən öncə də hansı potensiala malik olmasından xəbərdar idilər. Ukrayna müharibəsi tərifli və imkanları şişirdilmiş Rusiya ordusunun zəifliyini, bəzi hallarda isə acizliyini göstərdi. Rusiya tarix boyu apardığı bütün müharibələrdə əsgər sayına arxalanıb. Ukraynaya qarşı müharibədə də Rusiyanın ən böyük üstünlüyü məhz canlı qüvvədir.

Hazırda rusların Avdeyevka uğrunda döyüşlərdə böyük itkilər verməsinə baxmayraq, durmadan hücuma keçmələri buna sübutdur. Bəzi mənbələrin verdiyi məlumata görə, ruslar gün ərzində 800-900 nəfər əsgər itirir. Bəlkə də bu statistika doğru deyil, amma hər halda hətta bunun yarısı da böyük göstəricidir.

Ukrayna və Rusiya arasında uzunmüddətli müharibə hər iki tərəfi taqətdən salacaq və bu da Qərbin Avrasiya ilə bağlı geostrateji marağına cavab verir. Çünki müharibə nəticəsində böyük məkanda yarana bilcək boşluğu öz siyasi və iqtisadi məqsədi naminə doldura biləcək güc Çin yox, məhz Qərb ola bilər.

Ona görə də Rusiya ilə Ukrayna arasındakı müharibənin daimi münaqişə ocağına çevrilməsi ehtimalı böyükdür. Ola bilər ki, hətta tərəflər arasında atəşkəs də elan olunsun və müvəqqəti razılaşmalara da gedilsin, lakin bundan sonrakı dövrlərdə Rusiyanın qərb sərhədlərində dinclik və sabitlik olmayacaq və münaqişə zaman-zaman yenidən alovlanacaq. Müharibə uzandıqca itkilər çoxalacaq, bu isə Ukrayna üçün təhlükə deməkdir, ancaq sonrakı mərhələlərdə Kiyev müdafiə taktikasını tutsa və Rusiya ərazi zəbt etməyə girişsə, insan resursunun yetərincə olmasına baxmayraq, Moskva əsgər çatışmazlığı ilə qarşılaşa bilər. Çünki hələ ki, müharibədə ölənlərin əksəriyyəti mərkəzdən uzaq regionlardandır. Ancaq belə getsə, mərkəzi rayonlardan da xeyli sayda döyüşçü aparmağa başlayacaqlar. Digər tərəfdən müharibə uzandıqca Rusiyaya zərbələr içəridən vurulacaq və ölkə daxilindəki strateji obyektlərdə diversiya aktları artacaq.

# KREMLİN UKRAYNA İLƏ BAĞLI YENİ PLANI MƏLUM OLDU

**Məlum olduğu kimi, hələ 2014-cü ildən Rusiya ordusunun hədəfində olan, 2022-ci ilin fevralından etibarən isə daim hücumlara məruz qalan Donetsk vilayətindəki kiçik Avdeyevka yaşayış məntəqəsi hələ də təslim olmayıb.**

Baxmayaraq ki, son iki ayda Rusiya bu istiqamətdə yüzlərlə hərbi texnika və on minlərlə canlı qüvvə itirib, digər istiqamətlərdəki hərbi qüvvələrini buraya yönəldərək, saysız-hesabsız hücumlar təşkil edib. Artıq bu istiqamətdə Rusiya ordusunun verdiyi itkilər o həddə çatıb ki, Rusiyada əhali arasında bununla bağlı ciddi etirazlar baş qaldırmağa başlayıb.

"AzPolitika.info" xəbər verir ki, Rusiyanın tanınmış "Vajnıye istorii" nəşrinin yazdığına görə 100-dən artıq rusiyalı əsgər anası və hərbçilərin digər yaxınları Vladimir Putinə məktub ünvanlayıblar.

Məktubda deyilir ki, onların Avdeyevka ətrafında döyüşən övladlarına və yaxınlarına Putinin dekabrın 14-də keçiriləcək birbaşa mətbuat konfransına qədər nə yolla olursa-olsun Avdeyevkanı almaq tapşırığı verilib və buna görə də komandirlər onları əsl mənada "ət maşınına" atırlar. Yazıda qeyd olunur ki, hətta rusiyalı komandirlər yaralı əsgərləri döyüşə ataraq, onlara "səngərlərdə sağalmağı" əmr edir.

Məktub müəlliflərinin qeyd etdiyi kimi, səfərbər olunanlar 10 aydan artıqdır ki, Avdeyevkanın 700 metrliyində cəbhə xəttində səngərlərdə yaşayır və daim atəş altındadırlar.



Əsgər anaları Putindən nə istədilər?

Döyüşçülərin yaxınlarının verdiyi məlumata görə, noyabrda hücumun aktiv mərhələsi başlayandan sonra komandanlıq orta dərəcəli xəsarət almış hərbi qulluqçuların hücum bölmələrinə göndərilməsi barədə əmr verib: "Onlar tələsirlər, nə qədər ki ukraynalılar öz aralarında mübahisdə edirlər, Putinin birbaşa mətbuat konfransına və Yeni il bayramına qədər nəticə əldə etmək lazımdır. Hamı deyir ki, Avdeyevka götürüləcək və daha sonra danışıqlar başlayacaq".

Digər vacib istiqamətlərdən qoşunların Avdeyevkaya gətirilməsi və hətta Baxmutdan da dəfələrlə kiçik olan bu yaşayış məntəqəsi uğrunda kütləvi itkilər verilməsi, buna baxmayaraq, hücumların davam etdirilməsi bu iddiaları təsdiqləyir. Belə görünür ki, doğrudan da Putinə ənəvi böyük mətbuat konfransı və Yeni il bayramı öncəsi hətta Avdeyevka səviyyəsində olsa belə, kiçik "qələbə" lazımdır. Bunun üçün nə qədər rusiyalının ölməsi və şikəst olması isə əhəmiyyətli deyil. Oxşar mənzərə ilə Rusiya işğalı başlayandan sonra dəfələrlə rastlaşmışıq. Avdeyevkanın işğal edilməsindən(əgər mümkün olsa) sonra danışıqların başlanacağına dair deyilənlər isə kifayət qədər mübahisəli görünür...

*C.Məmmədov*

# Post-Qarabağ: geosiyasi reallıq, kurs və balans....

Bakının Qərb dövlətləri və dairələrindən Azərbaycanın ünvanına səslənən ittiham, açıqlama və bəyanatlara, həmçinin anti-Azərbaycan davranışlara adekvat reaksiyasını, diplomatiya müstəvisindəki kritik gərginliyi Azərbaycanın geosiyasi seçimi kontekstində dəyərləndirmək və ya xarici münasibətlərdə balans siyasətinin pozulmasından danışmaq hələ tezdir.

Təbii ki, bizə sülh lazımdır və sülh sazişi nə qədər tez imzalansa, o qədər Azərbaycanın bütün anlamlarda yararınadır. Amma daha anlamlısı və vacibi həmin sazişin necə və hansı mətnlə imzalanmasıdır. Paşinyanın sözlərinə görə, "Azərbaycanla sülhün əsas prinsipləri razılaşdırılıb", amma "İrəvan və Bakı hələ də müxtəlif diplomatik dillərdə danışır... biz çox vaxt bir-birimizi başa düşmürük".

Əslində tərəflər bir-birilərini yaxşı başa düşürlər. Yəni, qalib Azərbaycan sülh sazişi ilə zəfərini kapitulyasiya aktı kimi tam təsbit etmək, məğlub Ermənistan isə bu təsbitin altından hansısa kompromislə üzüsulu çıxmaq istəyir. Vasitəçilər isə tam başqa şeylər istəyirlər, özü də çox yepyekə olduqlarından iştahları da böyükdür. Üstəlik, sülh prosesinə patronluq davası aparırlar. Nəticədə bizim sülh prosesinin gedişatı ənənəvi savaşların sonundakı klassik sülh danışıqlarından fərqli, hələm-qələm situasiyalarla müşayiət olunur...

Cənubi Qafqazda sürətlə dəyişən geosiyasi reallıqlar, problemlər, təzyiqlər, Azərbaycanın məcburi və ya hesablanmış strateji və taktiki addımları, situativ manevrləri avroatlantik (Qərb) və yaxud Avrasiya (Rusiya-Çin) pəncərələrdən fərqli mülahizələrlə dəyərləndirilir və faktlara söykənməyən qənaətlər çıxarılır.



Məsələn, Qərblə Bakı arasında birgünlük müharibədən sonra yaşanan "diplomatik batl", anti-Qərb ritorikası hakimiyyətin opponentləri tərəfindən Bakının geosiyasi kursunu dəyişməsi, "Rusiyaya sığınması" kimi yozulur. Azərbaycan XİN-in son 20 gündə ( 3 noyabr və 16 noyabr) ABŞ-a ünvanlanan cavablarından biri 31 oktyabrda Senatın Təxsisatlar Komitəsində çıxışı zamanı ABŞ dövlət katibi Antoni Blinkenin açıqlaması və 2 noyabrda Dövlət Departamentindən "Amerikanın Səsi"nə müsahibə, digəri isə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi James O'Braynın Konqresdəki dinləmələrdəki hesabatı ilə bağlı idi. Reaksiyalar nə qədər kəskin olsa da, adekvat idi.

Birincisində ABŞ faktiki ittiham edilirdi: "ABŞ Ermənistanı yanlış istiqamətə yönəldib, separatçıların qeyri-qanuni fəaliyyətinin müdafiəsi məqsədilə ABŞ-a səfər etmələri üçün imkanlar yaratmaqla və maliyyə vəsaiti ayırmaqla Azərbaycan ərazilərində qanunsuz rejimin saxlanılmasına dəstək verib...ABŞ da keçmiş münaqişənin sülh yolu ilə həlli istiqamətində fəaliyyətsizliyinə görə məsuliyyət daşıyır". İkincisində Azərbaycan XİN dövlət katibinin köməkçisinin hesabatını "birtərəfli və qərəzli", fikirlərini "səmərəsiz, əsassız və qəbuledilməz" sayır , ABŞ-ın mövqeyi daha kəskin, daha sərt ifadələrlə, diplomatik sancmalarla ("Region ölkəsi olmayan ABŞ"), əks ittihamlarla ("ABŞ tərəfinin 907-ci düzəlişin icrasının müvəqqəti dayandırılması məsələsi ilə bağlı belə laqeyd hərəkəti Azərbaycana qarşı bədxah addımdır") şərh edilir, ABŞ-ın vasitəçiliyi şübhə altına bilinəcəyinə işarə edilir və noyabrın 20-də Vaşinqtonda keçiriləcək görüşdən imtina olunur.

"Azərbaycanın Ermənistana hücum edəcəyi" demoqogiyası fonunda Bakının Qərbin vasitəçiliyinə skeptik yanaşmasını və yaxud sülh danışıqlarında Vaşinqton və Brüssel platformalarını boykot etməsini tezbazar Azərbaycanın danışıqlardan yayınması və ya sülh prosesini yubatması kimi yozmaq və burdan da Bakının geosiyasi seçimini Rusiyanın xeyrinə etdiyi üçün sülh prosesini süründürməsi qənaəti çıxarmaq, ənənəvi balans siyasətinin ortadan qalxmasından, daha uzağa gedib yaranmış sitasiyanın müharibə riskinin yüksəltməsindən danışmaq, bu kimi iddialar irəli sürmək olar. Amma bu iddiaları arqumentləşdirmək çətindir. Sərt ritorika, kəskin diplomatik mesajlar mübadiləsi hələ dövlətlərarası münasibətlərdə böhran, körpüləri yandırmaq deyil. Balansın pozulması isə heç deyildir, nə demokratiya davası , nə də erməni məsələsi konteksti geosiyasi oyunlara ciddi korrektə etməz. Başqa sözlə, Qərb-Bakı münasibətlərində gərginlik uzun sürməz, kəskin dönüş və qəfil sürpriz gözləməyə isə heç dəyməz.

Və yaxud Bakının Rusiyadan səslənən oxşar bəyanatlara və addımlara hələlik reaksiya verməməsi onların unudulmazı anlamına gəlməz. Məsələn, Putinlə və Lavrovun Ermənistanı Azərbaycanın ərazi bütövlüyünü tanıdığına görə, üstəlik, Qərbin təsiri nəticəsində tanıdığına görə qınamasını, Rusiya xarici işlər naziri Mixail Qaluzinin "İrəvanla Bakının münaqişəsinə nöqtə qoyulmayıb" və yaxud "sülh sazişində Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi məsələlərinin aydın ifadə olunması vacibdir" kimi iddialarını Azərbaycan diplomatiyası mütləq yaddaşının bir küncünə yazıb. Sadəcə regionda konyunktura elədir, Cənubi Qafqazda və ətrafında elə dramatik oyunlar qurulur ki, Moskva ilə münasibətlər manevrlərsiz mümkün deyil. Qarabağı qaytardıqdan sonra Azərbaycan üçün Rusiyanın regionda iştirakı önə çıxan problemdir. Bu elə problemdir ki, Qarabağ məsələsində olduğu kimi Qordi düyünü kimi açmaq müşkül işdir, bunu Ukrayna müharibəsi də göstərdi.

Təbii ki, Rusiya regiondan nə qədər tez getsə yaxşıdır. Amma qlobal rəqabətdə ABŞ-ın Rusiyanı regiondan sıxışdırmaq planlarında alət olmaq da çox xatalı və riskli işdir. O Ermənistandır ki, dəvəsi ölmüş ərəb kimi itirdiyini itirib, indi burdan ora, ondan buna sıçrayır...

# Rusiyanın patronu...

**2024-cü il martın 17-də Rusiyada növbəti prezident seçkisi keçirilməlidir. Səsverməyə vur-tut 4 ay qalıb, amma Putin hələ seçki kampaniyasına qatılacağını açıq şəkildə elan etməyib.**

Ümumiyyətlə, Kremldə qarşıdakı seçkidən danışmağı sevmirlər. Amma hakim elitada müəyyən tərpənişlər, hərəkətlənmələr var ki, bunun da nələr vəd etdiyindən, Rusiyanı haralara aparacağından baş çıxarmaq çətindir. Rusiyada saray çəkişmələri həmişə gizli, xalça altında gedib və Kreml məmurları belə işlərdə, qəliz intriqalarla bir-birilərinin başını yeməkdə ustadırlar. Vəhşi məmur aləmi serengeti kimidir – kimlərsə kimlərisə yeyir, çeynəyir və yaxud diri-diri udurlar. Bəzən biri favorit kimi dəyərləndirilir, sonra görürsən ki, cəmdəyini atıblar çölə. Rusiyanın siyasi tarixi belədir...

Putinsə qocalıb, günün birində başına hər şey gələ bilər, diktatorlar terminator deyillər, ətrafı isə gün gəlir siyasi, hətta fiziki gələcəyini düşünməyə vadar olur. Hər rəhbər nə qədər güclü, hökümlü olsa da, təkbaşına və hər şeyin fövqündə görünsə də, ətrafından asılıdır. Gün keçir və ömür sona yaxınlaşdıqca bu asılılıq daha da artır...

Rusiyanın tanınmış tarixçisi, siyasi analitik və konspiroloqu Valeri Soloveyin konsepsiyasına görə, bunkerdəki Putin əsl çar deyil, "soyuducuya qoyulub", ölkəni isə hansısa "Vasiliç" və "Oleqoviç" idarə edir ki, bu da önəmli deyil. Yəni, Kremlin indiki sahibi "dondurulmuş hökmdardır", idarə edənsə ətrafıdır. Bu, konsepsiyadan çox professor Soloveyin konspiroloji versiyasıdır. Bu həmin Soloveydir ki, Putinin öldüyünü, ölkəni onun oxşarlarının idarə etdiyini də iddia edib.

Hər bir halda Soloveyin konsepsiyası Putinin xarizmasını çızıq-cızıq edir, Kremlin sahibinə, rejimə şübhələr yaradır, söz-söhbətlərə səbəb olur. Amma konspiroloqa toxunan yoxdur. Belə şübhələr var ki, Soloveyi Rusiyanın ən sirli siyasi fiquru Nikolay Patruşev himayə edir, professor Rusiya Təhlükəsizlik Şurasının katibinə işləyir və yaxud maraqları üst-üstə düşür. Yəni, rejimi silkələməkdə Patruşev də maraqlı ola bilər ki, artıq vaxt yetişib. Yoxsa professor-konspiroloqu bir saat içində itqusdu edərdilər...



FSB-nin (Rusiya Federal Təhlükəsizlik Xidməti) keçmiş direktoru qapalı, sakit, gözə batmayan, boz, mübhəm bir adamdır. Əvvəldən də hesab edilirdi ki, Patruşev "Kreml soyuducusundakı adam"ın canişini, Rusiyanın baş nəzarətçisidir. Bəzilərinə görə, o, Putinin siyasi varisidir, digərlərinə görəsə, o, çoxdan Rusiyanın patronudur....

Son günlərdə siyasi fəallığını fövqəladə səviyyədə artıran Patruşev artıq aşkar gözə batmağa başlayıb. Sanki ona əvvəlkindən fərqli rol verilib və ya özü bu rolu öz üzərinə götürüb. O, sentyabrda "Razvedçik" jurnalında "Parazit imperiyaların iflası" kimi gurultulu başlıqla Rusiyanın dünyada geosiyasi roluna dair proqram xarakterli yazı dərc edib, daha sonra "Bilik" cəmiyyətinin tədbirində yekə proqram çıxışı edərək birdən-birə və nədənsə Putinin 23 illik hakimiyyətinin yekunlarından danışıb. Patruşev böyük natiq imiş, amma kimsənin xəbəri yoxmuş. Kəşfiyyatçılar belədirlər, sürprizləri sevirlər...

Maraqlıdır, Putinin 23 illik hakimiyyətini dəyərləndirməyə nədən, hansı siyasi səbəblərdən ehtiyac yaranıb?

Patruşev Putini Rusiyanın xilaskarı adlandırır, eyni zamanda onun 23 illik fəaliyyətini retrospektiv dəyərləndirir, Kremlin sahibi haqqında daha çox kədərli və keçmiş zamanda danışır. Müasir Putindən heç bəhs etmir, sanki yoxmuş... "Radio Svoboda"da dərc edilən "Patruşev. Patron Rossii" adlı təhlildə qeyd edilir ki, bir çox müşahidəçilər zarafatla Patruşevin nitqini Putinin nekroloqu adlandırırlar...

Patruşev güc strukturlarının təmsilçisidir və onların lideridir. Rusiyada güc strukturlarına – DİN-ə, RF İstintaq Komitəsinə, prokurorluğa və həmçinin məhkəmələrə FSB nəzarət edir. FSB-nin başında isə Patruşevin canişini Bortnikov oturub. 2008-ci ildə o, FSB-dən gedəndə Bortnikovu yerinə qoymuşdu, 15 ildir o, orda, Patruşev RF Təhlükəsizlik Şurasında və hamının üstündə oturub.

Rusiya Dövlət Dumasının keçmiş üzvü, isrefada olan FSB polkovnuki, xüsusi xidmətlər üzrə ekspert Gennadi Qudkov deyir: "Hər şey və hamı FSB-nin altında, kurasiyasındadır, bütün məsələləri o həll edir – kim yaşasın, kim yaşamasın, kimi həbs, kimi əfv etmək olar, kim öldürülsün, kim sağ buraxılsın. Qəbul edilən mühüm siyasi qərarların konfiqurasiyası təxminən belə qurulub... Beləcə siyasət Rusiyadan çıxıb gedib, hər şey təmizlənib və betonlaşdırılıb, deməli, bizdə hakimiyyəti kim qoruyub saxlayır? Güc strukturları. Güc strukturlarında baş fiqur kimdir? Patruşev..."

Bəzilərinə görə, Rusiyanın xarici siyasəti də Patruşevin məsuliyyət dairəsinə aiddir. Rusiya XİN diplomatik mövqe və simasını itirib, Lavrov isə Patruşevin yanında qələt eləyir. Hərb dövrünün xarici siyasətini öz üzərinə götürən Patruşevin son yazı və açıqlamaları da bunun təsbitidir....

Güc strukturları və ya rusların "silovik"lər adlandırdıqları güc sahibləri hakimiyyəti hansısa Mişustinə və Sobyaninə təslim etmək niyyətində deyillər. Şoyqu və digər generallar da gedib daş atsınlar, qolları açılsın. "Silovik"lər və ya "KQB"nin varisləri hakimiyyətin gerçək sahibləridir. Güman ki, Rusiya siyasətində "hərb partiyası"nın əsas avtoriteti kimi Patruşev son fəallığı ilə açıq siqnal verir ki, "silovik"başı kimi siyasi varis, "Putin işinin davamçısı", "1 nömrəli putinçi" mənəm, qalanlar ayaqlarını yorğanlarına görə uzatsınlar, yoxsa ayaqsız qalarlar...

Bəs Putin? Onu yeqin ki, "bunker patriarxı" kimi saxlayarlar ki, özü üçün baş münsiflik etsin, amma burnunu hər şeyə soxmasın, ölkəni isə özləri idarə edərlər. Düzdür, ağıllarına başqa şeylər də gələ bilər...

**Qəzənfər Həmidoğlu**

# Seçilmiş şeirlər

### Bu dünya bir bazardır

*Dünya bazardır, köhnə bir bazar,*
*Alınıb-satılır adamlar burada.*
*Qəhrəman olsun, ya mərdimazar,*
*Ucuz qiymətə adam var burda.*

*Çəkir ömürləri mizan-tərəzi,*
*Düzə düz, haqq-hesab gedir.*
*Süzgəcdən keçirik hər birimiz,*
*Hesablar ayrıca kitabda gedir.*

*Elə adam var çıxdaşdır daha,*
*"Piştaxta" küncünə qısılıb qalar .*
*Adam görmüşəm qızıldan baha,*
*Dəstəsi on qəpik olanlarda var!*

*Hər kəs qiymətini özü yazır,*
*Qiymət kağızına öz əlləriylə,*
*Kimin dəyəri nə, qiyməti nədir?*
*Ölçülür, biçilir əməllərilə!*



*Taparsan burada nəyi diləırsən ,*
*Bazar öz nıxını dəyişməz qəti .*
*Bu dünya bazardır özün bilirsən*
*Ya cəhənnəmi al, ya da cənnəti .*

### Qocalıq

*Xəcalətəm gözəllərin yanında,*
*Düz deyiblər, çətin yaşdır qoçalıq.*
*Oçaq sönüb, isti çıxmır bacadan,*
*Gah sızıltı, gah gileydir qocalıq.*

*Dərd könlümdə eşqi açə bilmədi,*
*Kimsə məni qəmlə döyə bilmədi,*
*Çox çalışdı, dünya əyə bilmədi,*
*Düz qəddimi zorla əydi qocalıq.*

*Tufan əsib, bütün barım tökülüb,*
*Ürəyimin arzuları bükülüb,*
*Üzüm-gözüm şırım –şırım əkilib ,*
*Yoxa çıxan tabdı, heydi qocalıq*

*Sönüb, od axtarma külümdə,*
*Elə bil ki, bir şələ var belimdə,*
*Xatirələr sözə dönüb dilimdə,*
*Ağlar tütək, yanar heyi qoçalar!*

*Yaşamışam qeylqalda ömrümü,*
*İtirmişəm dərd məlalda ömrümü,*
*Yaxaladın yarı yolda ömrümü,*
*50 nəydi, sən nə idin qocalıq?*

*Çevrilmisən başımda qaxınca,*
*Bəs demədin yandırıb, yaxınca ,*
*Bir dilbərə həsrət ilə baxınca,*
*Dedilər ki, gicdi səydi, qocalıq,*

*Evdəkilər bezib acı sözümdən,*
*Yorulublar əşi, bəsdir, deməkdən,*
*Fərman kişi nə istəyir, fələkdən?*
*Güllə kimi ona dəydi qocalıq!*

**Fərman Məhəmməd Əzizli**
*Azərbaycan Respublikasının Maarif Xadimi, Azərbaycan Respublikasının Əməkdar müəllimi, Qəbələ rayon Oğsaqqalar Şurasının İdarə heyətinin üzvü.*

### Ay Şirin həkim

*Dərmanın çox acı olsa da sənin ,*
*Dilin adın kimi, bal tək şirindir.*
*Dillərə düşübdür sənin hünərin,*
*Xatirin əzizdir, hörmət dərindir!*

*Hippokrat andını içən zaman,*
*Sən nə düşünürdün, həmin an,*
*Verirsən xəstəyə öz əlinlə can,*
*Yoxdur bərabərin, ay Şirin həkim!*

*Nə gecən var, nə də gündüzün,*
*Cərrah bıçağını işlədirsən özün,*
*Xəstəyə şəfa verir hər şirin sözün,*
*Yoxdur bərabərin, ay Şirin həkim!*

*Sanki sehirlidir cərrah bıçağın ,*
*Olsun ucalarda hər an bayrağın ,*
*dəyərli oğlusan sən bu torpağın ,*
*Yoxdur bərabərin, ay Şirin həkim .*

*Adama anadır böyük bacısı,*
*Dağ çəkir adama sözün acısı,*
*Bəlkə də, dünyanın ən ucası?!*
*Sənsən, yorulma, ay Şirin həkim!*

*Hamı loğman deyib sizə əzəldən ,*
*Xəstə insanları sənsən dircəldən ,*
*Tanrı sizi qorusun bəd nəzərdən ,*
*Yoxdur bərabərin, ay şirin həkim*

**Zenfira Mənsurqızı**
*Qəbələ yazarları İB-nin üzvü.*

### Dünya, mənnən işin olmasın

*Keçib gedirəm, Qərib səyyaham,*
*Dünya mənimlə işin olmasın.*
*Bir Qu quşunun çəkdiyi anam,*
*Dünya, mənimlə işin olmasın .*

*Özüş çəkdiyim özümə yetər ,*
*Qoy ömrü vurum başa bir təhər*
*Olma yolumda keçilməz çəpər*
*Dünya , mənimlə işin olmasın.*

*Bilirəm, sənə nahaq gəlmişəm,*
*Öz gəlişimə özüm gülmüşəm,*
*Çətin ki, sənin toruna düşəm,*
*Dünya mənimlə işin olmasın,*

*Göy çəməndə gəzənlərin çox,*
*Göy göllərində üzənlərin çox,*
*Çal çaldığına süzənlərin çox,*
*Dünya, mənimlə işin olmasın.*

*Dolan oxunda, öz işində ol,*
*Dövri –zamanın gərdişində ol,*
*Kimlə istəsən savaşında ol,*
*Dünya mənimlə işin olmasın .*

**Məhəmməd Əli**
*AYB və AJB üzvü,*
*"Qızıl Qələm", " Araz", H.B.Zərdabi, "Məmməd Araz" Ali mükafatları laueatı*

# Bir pərdəlik pyesə sığışanlar...

(İxtisarla)

**Azərbaycan teatr tamaşaçısına, sənətə vəfalı zümrəyə onun adı və imzası yaxşı tanışdır. Uzun illərdir əsərləri sərasər teatr səhnələrində qoyulur. "Dramaturq teatrda yetişir" prinsipi ilə yanaşsaq, bəli, onu da teatrda yetişən hesab etmək olar...**

Həmsöhbətimiz yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi, professor Əli Əmirlidir.

*– 75. Hər halda, qulağa cazibədar gəlir...*

– Yaxşı təsəllidir, amma 75 yaşın, sizin dediyiniz cazibəsindən başqa bir diksindirməyi də var, başa düşürsən ki, keçmişin çox, gələcəyin azdır. Əslində, bu yaşa çatmış adam şükür eləməlidir ki, bu qədər yaşayıb, bacardığını eləyib, həyatdan kifayət qədər zövq alıb. Keçmiş haqqında az düşünürəm, keçmişə qovuşmuş günlərin xiffətini çəkməməyə çalışıram. Axı onu nə dəyişə, nə redaktə eləyə bilərsən. Gələcək üçün də möhtəşəm planlar qurmuram. Çünki gələcək sənin üçün gəlməyə də bilər, odur ki, bu günlə yaşamağı sevirəm.

*– Adətən, "heç bilmədim bu yaşa necə gəldim" ilə başlayır 70-dən sonrakı illər. Məncə, sizdə dramaturji xətt hakim olduğundan pərdələr, şəkillər arasındakı rabitəni də sabit qurmusunuz. Yoxsa, yanılıram?*

– Sizin dediyiniz kompozisiya məsələsidir, pyesdə, ssenaridə kompozisiyanı dramaturq qurursa, real həyatda fərqlidir. Voland demiş, əgər sən gələcək həyatının necə olacağını planlaşdıra bilmirsənsə, hansı ardıcıl gələn şəkildən, pərdədən danışırsan? Bununla belə, fikrimcə, insan taleyini əsasən özü yaradır, Allahın verdiyi ağılla, fərasətlə, istedadla.



*– Həyatda olduğu kimi, sənətdə də, ədəbiyyatda da heç də hər şey düz xətt üzrə getmir. Belə məqamlarda istinad nöqtəniz maraqlıdır.*

– Xoşbəxtlikdən ədəbiyyata, çox çətin yaradıcılıq sahəsi olan teatra gəlişim daha çox yüksələn xətt üzrə davam edib, müvəqqəti ziqzaqlar olub, amma bu məni ruhdan salmayıb, belə məqamlarda istinad nöqtəm səbir, hövsələdir. Mənim gileyləndiyimi, şikayətləndiyimi heç kəs nə eşidib, nə görüb. Ölkənin baş teatrı "Azdrama"da otuz ildən çoxdur pyeslərim repertuardadır. Bir məqam oldu ki, repertuarda 3 əsərim olsa da, ilyarım teatra getmədim. Sonra yeni gəlmiş direktorla təsadüfən bir görüş oldu. O dedi ki, mən sizdəki səbrə-hövsələyə təəccüb eləyirəm. Mən də dedim, bu teatrda 6 əsərim oynanılıb, 7-ci oynanmasa nə olacaq? Bu söhbət "Şah Qacar"ın tamaşaya qoyulması ərəfəsində olmuşdu. Həmin tamaşa artıq 11 yaşına qədəm qoyur.

*– Çağdaş dramaturgiyamızda əsərləri ən çox səhnəyə qoyulan müəllif kimi, Azərbaycan teatr prosesini də ən yaxşı analiz imkanınız var. Bu mənada təyininiz necədir?*

– Mövcud teatr prosesi bütövlükdə ətalətdən, durğunluqdan çıxmağa çalışır. Bu prosesdə teatrı sevən tamaşaçıların istəyi və zövqü, fikrimcə, həlledici rol oynayır. Onu da deyim ki, tamaşaçı, xüsusilə gənc tamaşaçı fəhmlə yaxşını pisdən ayıra bilir. Hələlik ənənəvi teatr havası hakim olsa da, teatr şəxsən mənə məlum olmayan yeni bir yaşam (inkişaf deməkdə tərəddüd edirəm) tərzinə hamilədir. Nə doğulacaq, tam məlum deyil, amma konturları görünür. Teatrda kinoda olduğu kimi plastika, hərəkət, kompüter texnikası, deyəsən, sözü səhnədən sıxışdırıb çıxarır.

*– Nitsşe deyir ki, məsələ əbədi həyatda yox, əbədi həyatilikdədir. Bu mənada dramaturgiya nə dərəcədə həyatidir?*

– Ənənəvi klassik teatrda dramaturgiya həyati olmayanda uğur qazana bilməzdi. Tamaşaçı səhnədə gördüklərinə inanırdı. Bu gün isə teatr inandırmaq deyil, təəccübləndirmək, heyran etmək amacındadır. Hətta kino və sirk estetikasından da gen-bol istifadə edilir.

*– Müəllif üçün dram, komediya, yoxsa tragikomediyada fikir axını və ifadə azadlığı üçün geniş meydan var və bu mənada cəsarətli yazıçı daha çox hansında sərbəst olur?*

– Bir cümlə ilə cavab verə bilərəm: janr hələ keyfiyyət deyil, ən yaxşı janr yaxşı yazmaqdır. Bu da bir həqiqətdir ki, janr əsərin bütün komponentlərinə təsir edir. Axır vaxtlar janr qarışıqlığı məni daha çox cəlb edir, bəlkə sintetik janr deyək. Orda özümü rahat hiss eləyirəm. Tamaşaçı gah gülür, gah ağlayır. Peripetiyalar da bir tərəfdən tamaşaçını darıxmağa qoymur. Bəlkə ona görədir ki, əsər tamaşaya qoyulur, illərlə repertuarda qalır, aktyorlar qocalır, dünyasını dəyişir, tamaşa isə yaşamaqda davam edir.

*– "Mesenat"da olduğu kimi?*

– Bunu siz dediniz, mən də təsdiq edirəm. Tamaşada əsas rolların ifaçıları – Əliabbas Qədirov, Kamal Xudaverdiyev, Yaşar Nuri, Elxan Ağahüseynoğlu "Mesenat"da son rollarını oynadılar. Bir məqamı deyim: "Köhnə ev"də Eldəniz Zeynalov Şükufə Yusupovanın atasını oynayırdı. Rolu, sadəcə, oynamırdı, yaşayırdı, iyirmiillik fasilədən sonra səhnəyə çıxmışdı. Rol da elə bil boyuna biçilmişdi. O, vəfat edəndən sonra başqa bir aktyoru tamaşaya daxil elədilər. Şükufə xanım təzə atanı heç cür qəbul eləyə bilmirdi, deyirdi, elə bil evə ögey ata gəlib. Zatən, teatr qəribə yerdir, sirli mühitdir.

*– Yuxarıda cəsarət demişdim, cavab almadım, davam eləyək. Bu gün teatrdan, yel dəyirmanları ilə dalaşan Don Kixotluq da olmasa, qəhrəmanlıq tələb edənlər az deyil. Sual bəlkə də səthi səslənəcək: siz teatrımızı cəsarətli və azad hesab edirsiniz?*

– Cəsarət də, azadlıq da nisbi şeylərdir. Azad sözün də, cəsarətin də bir həddi var. Biz reallıqla barışa bilməsək də, onunla hesablaşmağa məcburuq. İnternet, sosial şəbəkələr, yutub, virtual mətbuat azad sözün meydanı deyilmi? Danış, qışqır, lap donkixotluq elə. Teatra isə bədii sözün, dramaturgiyanın qüdrəti lazımdır.

*– Elə isə dramaturq və insan olaraq azadlıq anlayış və sədləriniz maraqlıdır.*

– Mən nə yaradıcılıqda, nə məişətdə qınaq yeri olmaq istəmirəm. Həyat prinsipim: şikayətlənmə, istəmə! Bu həyat prinsiplərinə sadiq olan adam daxilən azaddır, zatən, azadlıq içdən gəlir. İnsanlardan gözləntilərim çox olmadığından, türkün sözü, xəyal qırıqlığı da yaşamıram.

**Söhbətləşdi: Həmidə Nizamiqızı**



## ALLAH (c.c.) sözünün etimologiyası

Allah – Uca Yaradanın xüsusi adıdır. Bu ad Onun kamal, camal və cəlal sifətlərinin ifadə etdiyi anlamların tamamını əhatə edir. Allahın digər adları isə Allahı təsvir edir. Allah adının heç bir dildə tam qarşılığı yoxdur.

Ərəbcə ilah, türkcə tanrı, farsca xuda, ingiliscə god, fransızca dieu, almanca gott və s. kəlmələri "Allah" kəlməsi kimi xüsusi ad deyildir. Bunlar ilah, məbud, rəbb kimi isim növləridir. Bu söz (ALLAH) yalnız haqq olan məbudu, varlığı zəruri olan yaradıcını ifadə edir. Başqa bir varlığa Allah deyilməz. Yəni Allahın adaşı yoxdur (Məryəm, 19/65).

Allah kəlməsinin mənşəyi haqqında İslam alimləri, ərəb dili mütəxəssisləri və şərqşünaslar müxtəlif fikirlər irəli sürüblər. Belə bir fikir hamı tərəfindən qəbul edilib: söz hər hansı bir kökdən törəməyib, lüğəvi məna kəsb etmir, gerçək məbudun xüsusi adıdır. Yaxud məna kəsb etsə belə, həqiqi məbudun adı olduqdan sonra bu mənanı itirib və s.

Bununla yanaşı, Allah kəlməsinin müxtəlif köklərdən törədiyini iddia edənlər də vardır. Məsələn, bu kəlmənin İlah sözündən törədiyini irəli sürənlərə görə, bu söz, əvvəlinə "əl" müəyyənlik artikli əlavə edilərək "əl-ilah" şəklində işlənib, sonra dildə asanlıq yaratmaq məqsədilə sözün həmzəsi atılıb, iki "ləm" hərfi birləşdirilib (idğam, assimilyasiya), əzəmət ifadə edən qalın bir səs verilərək "Allah" şəklində oxunub. İlah sözü isə "qulluq etmək" mənasındakı – [ələhə - yə ləhu] və ya "heyrət içində qalmaq, ürəkdən bağlanıb sığınmaq" mənasındakı [əlihə -yə ləhu] və ya – [valihə-yauləhu] kökündən ismi-məful mənasında bir məsdər olub "tapınılan, ucalığının qarşısında heyrətə düşülən, qəlbən bağlanılıb sığınılan" mənalarını ifadə edir.

Başqa bir təmayülə görə, Allah kəlməsi Cahiliyyə dövrü ərəblərinin bütlərindən biri olan əl-Lat, yaxud arami dilində ələha sözlərindən əxz edilib.

Haqq və ya batil məbuda da tanrı, xuda, ilah deyilə bilər. "Allah" adının müxtəlif əsillərdən törədiyi irəli sürülsə də "əl-ilah" (a-uzun ə səsini bildirmək üçündür) kəlməsindəki "həmzə" olan "əlif"in düşməsi ilə əldə edildiyi fikri daha üstün tutulur.

Çox maraqlıdır ki, Uca Yaradanın ismi-əzəmi, yəni ən ulu ismi olan "Allah" ləfzinin hər hərfi Onu ifadə edir. Allah sözünün "əlif" hərfi atıldıqda "lillah" olur. Yenə o, Uca Yaradanı ifadə edir. "Əlif" və "ləm" hərfini atsaq "ləhu" olur ki, bu da Uca Allahı ifadə edir. "Əlif" və iki "ləm" hərfi birlikdə atıldıqda "hu" qalır. O da Allahı ifadə edir. "Allahu la ilahə illa hu (Allah ki, Ondan başqa ilah yoxdur)" (Bəqərə, 2/255). İnsanlar Allahın zatını, həqiqət və mahiyyətini bilə bilməzlər. Onu ələmətləri və ələmətlərin dəlalət etdiyi sifətləri və adları ilə tanımaq mümkündür. Allahın ələmətləri adlarına, adları sifətlərinə, sifətləri isə zatına dəlalət edir. Allahın ad və sifətləri zatı kimi əzəli və əbədidir.

***Professor İdris Abbasov***

# SƏBR: Linqvistik - terminoloji mənası, fəlsəfi məğzi, dini-əxlaqi mahiyyəti və üstün fəzilətləri

***"Sizi qorxu, aclıq, bir az mal, can və məhsul qıtlığı ilə, əlbəttə, imtahan edərik. Səbr edənləri müjdələ!"*** (Quran, əl-Bəqərə 2/155)

***"Tam təvazökarlıq və mülayimliklə, səbirlə davranıb bir-birinizə məhəbbətlə təhəmmül edin!"*** (İncil, Efeslilərə 4:2)

***"Rəbbi səbr edərək gözlədim, mənə tərəf dönərək fəryadımı eşitdi"*** (Tövrat, Məzmur 40/1)

Ərəb dilində "mane olmaq, qarşısını almaq, güclü olmaq, müqavimət göstərmək" mənalarına malik "səbr" sözü bir əxlaq termini olaraq "sıxıntı, müsibət və bəlalara sinə gərmək, vəziyyəti yaxşılaşdırmaq üçün mətanətli olmaq" mənalarını verir. Bu sözün antoniminin ərəbcə "cəza" (təlaş, kədər, şikayət, giley) olduğu bildirilir. Səbr ağıl və zəkanın, cəza isə acizliyin ifadəsi sayılır. Ona görə də, ağıllı bir adam haramdan çəkinmək üçün edilən səbrin Allahın əzabına səbr etməkdən daha asan olduğunu bilir. Səbr "nəfsi təlaşdan, dili şikayətdən, bədən üzvlərini çirkin davranışlardan qoruma, nemət və möhnət halları arasında heç bir fərq qoymadan hər iki halda sakitliyini saxlama, Allahdan başqasına şikayət etməmə" şəklində də tərif edilir.



Qəzali səbri "din duyğusunun nəfsani arzu və ehtirasların təzyiqinə qarşı müqavimət göstərməsi" şəklində tərif edir.

Qurani-Kərimdə beş yerdə "sabr" sözü vardır. Ayrıca yüzə yaxın ayədə eyni kökdən müxtəlif isim və feil qəlibləri mövcuddur. Ayələrdə səbrin əhəmiyyətindən bəhs edilir, səbrli davrananlara mükafatlar vəd olunur. Quranın yanaşmasına görə, Allah insanları qorxu, aclıq, yoxsulluq, xəstəlik, yaxınlarının ölümü və s. kimi müsibətlərlə imtahan edir. Bu müsibətləri səbrlə qarşılayıb Allaha təslimiyyət göstərənlər qurtuluşa çatmaqla müjdələnirlər (əl-Bəqərə, 2/155-157; Ali-İmran 3/142; Muhamməd 47/31). Səbr etmək bu fəzilətə sahib olanlar üçün çox xeyirli bir davranışdır (ən-Nəhl 16/126). Səbr dini təbliğ edən zaman əzm və səbat göstərən peyğəmbərin xüsusiyyəti sayılır (əl-Əhqaf 46/35). Bir nəfərin ona pislik edən adamı ədalətli şəkildə cəzalandırması haqdır, ancaq səbr etməsi daha xeyirlidir. Səbr etmək lazımdır, bu isə yalnız Allahın ehsanı sayəsində olur (ən-Nəhl 16/126-127).

Pisliyə pisliklə cavab verməyənlərə düşmənlərin hiylə və tələləri əsla zərər verməz (Ali-İmran 3/120). Hətta müharibə şəraitində təmkinli olub nizamlı davrananlara Allah, mələkləri vasitəsilə kömək edəcəyini vəd eddir (Ali-İmran 3/125). Yaxşılıq yolunu tutub pislikləri yaxşılıqla qarşılamağa çalışanlar, bu yolla ədavəti dostluğa çevirənlər, bunu yalnız səbrli davranışları və fəzilət sahibi olmaları ilə bacara bilərlər (Fussilət 41/34-35). Buna görə də, müsəlmanlar Allahdan səbr diləməli, özləri səbrli davrandıqları kimi, birbirlərinə də səbri tövsiyə etməlidirlər.

Qurani-Kərimdə Allahın səbr edənlərlə birlikdə olduğu (əl-Bəqərə 2/153, 249; əl-Ənfal 8/46, 66), səbr edənləri sevdiyi (Ali-İmran3/146), səbr və təqva ilə davrananların əməklərinin heçə getməyəcəyi (Hud 11/115), onlara qat-qat mükafat veriləcəyi (ən-Nəhl 16/96), sırf Allah rizası üçün səbr edənləri mələklərin təbrik edəcəyi (ər-Rəd 13/20-24) və s. ifadə edilir.

Səbr mövzusu hədislərdə də ətraflı şərh olunub. Hz.Peyğəmbər ondan davamlı kömək istəyənlərə kömək etdikdən sonra onlara ismətli və səbrli olmalarını nəsihət etmiş, belə olan halda Allahın onları ehtiyacdan qurtaracağını bildirmişdir. Allah Rəsulu "Heç kəsə səbrdən daha xeyirli və geniş nemət verilmədi"– deyə buyurmuşdu.

Sıxıntısız bir həyat gözəldir, ancaq sıxıntı zamanlarında səbrli və dayanıqlı olmaq insanı uğura qovuşdurur.

Uşağının ölümünün acısı ilə ağlayan bir qadına Hz.Peyğəmbərin "Allahdan qorx, səbrli ol!" sözünə müqabil "Mənim dərdimdən sən nə anlarsan?!" şəklində reaksiya verən qadın bir az sonra ona nəsihət edənin Rəsulullah olduğunu bildikdə ondan üzr istəmişdir. Hz.Peyğəmbər: "Səbr ilk sarsıntı zamanı göstərilən mətanətdir" – deyə buyurmuşdur.

Bəlaya səbr etmənin, yoxsa nemətə şükür etmənin daha fəzilətli davranış olması haqqında müxtəlif fikirlər vardır. Ümumən nəzər yetirdikdə, alimlər şükrün səbrdən daha fəzilətli olduğunu qəbul etsələr də, mütəsəvviflərin (sufilər) əksəriyyəti səbri üstün tuturlar. Təsəvvüfün istinad etdiyi səkkiz təməldən birinin səbr olduğunu söyləyən Cüneyd Bağdadi hər təməl üçün bir peyğəmbəri örnək göstərərkən səbr barəsində Hz.Əyyubu örnək göstərir. Səbr ilahi təqdirə etiraz etməməkdir.

Vacib məqamlardan birini qeyd edək ki, ilahi təqdirə qarşı şikayət etməmək şərtilə başa gələn sıxıntı və üzüntüləri ifadə etmək səbrə zidd deyildir. Məsələn, Əyyub peyğəmbər dərdini bildirməklə yetinmiş (Sad 38/41-44), ancaq şikayət etməmişdir.

Səbrin həqiqəti insanın bəlaya necə giribsə, eləcə də bəladan çıxması ilə səciyyələnir. Əyyub peyğəmbər məhz sıxıntıya düşdükdə "Başıma bir bəla gəlib, amma Sən mərhəmətlilərin ən mərhəmətlisisən!" (əl-Ənbiya 2/183) – demiş, "Mənə mərhəmət et" deməmişdir. Bu minvalla o, Allaha yalvararkən belə, ədəbini qorumuşdur.

Bəzi alimlər səbrlə şükrü eyniləşdirirlər. Bu haqda bəhs edən Qəzali "Şükür, yoxsa səbr daha fəzilətlidir?" sualını "Çörək, yoxsa su daha dəyərlidir?" sualına bənzədərək suya ehtiyacı olan kəs üçün suyun, çörəyə ehtiyacı olan üçün isə çörəyin daha dəyərli olduğunu ifadə edir. Bu suala müqabil Cüneyd Bağdadi: "Zənginin öyülməsi varlılıqdan, fəqirin öyülməsi yoxsulluqdan deyildir. Hər ikisində də tərifəlayiq olan şey zənginliyin və yoxsulluğun haqqını verə bilmələridir" – demişdir.

"Səbr imanın yarısıdır" hədisindən çıxış edərək imanın bu iki fəzilətdən –səbr və şükürdən ibarət olduğu bildirilir.

Bununla belə, mala və cana gələn zərərin qarşısında müqavimətsiz dayanmaq doğru hərəkət deyildir. Buna görə də, səbrin dini hökmü, yəni fəzilət sayılıb-sayılmaması dözülən sıxıntının mahiyyətinə görə dəyişir. Məsələn, haramdan uzaq durma və vəzifələrin icrasında təhəmmül göstərmə şəklindəki səbr fərz (vacib), məkruh (xoşagəlməz) əməl və davranışlardan uzaq durma şəklindəki səbr məndub (tövsiyə edilən), can, mal və namusun təcavüzə uğraması qarşısında səbr etmək haramdır və s.

İbn Miskəveyh sıxıntılar qarşısında səbrli olmağı bir igidlik kimi qəbul edir.

İbn Hazm başqalarının səbəb olduğu sıxıntılara əhəmiyyət verməyərək insanın öz qüsurlarını düzəltməklə məşğul olmasının vacibliyini söyləyir. O, üç fərqli səbrdən söz açır. Birincisi, güclü olanlardan, ikincisi, zəif kimsələrdən, üçüncüsü isə bərabər gücdə olanlardan gələ biləcək sıxıntılara qarşı göstərilən səbrdir. Bunlardan birincisinə səbr etmək fəzilət yox, zavallılıqdır. İkincisinə səbr etmək yaxşılıq və fəzilətdir. Üçüncüsünə gəlincə, əgər pislik edən kəs bunu bilmədən etmişsə, ona səbr etmək bir kamillik nümunəsidir, əgər qəsdən etmişsə, buna qatlanmaq bayağılıqdır.

Üzücü hadisələr qarşısında təlaşa düşüb anormal davranmaq həm dinin, həm də əxlaqın qəbul etmədiyi bir hərəkətdir. Çünki səbr özünütənzimləmə, faydasız əndişədən qurtulma və sıxıntının öhdəsindən gəlmə imkanı verir.

Rağib əl-İsfahani səbrin biri cismani, digəri ruhani olmaqla iki növündən bəhs edir. Cismani səbr bədənin məruz qaldığı zəhmətli işlərə və əziyyətlərə qatlanmaqdır ki, bu, tam olaraq fəzilət sayılmaz. Əsl fəzilət ruhi səbr olub iki şəkildə təzahür edir. İffət adlanan birincisi, insana zövq verən şeylərdən faydalanan zaman ifratçılıqdan uzaq durmaqla göstərilən səbrdir. İkincisi, istənilməyən hadisələrin başa gəlməsi, yaxud xoşa gələn nemətlərdən məhrum edilməsi zamanında səbrli davranmaqdır.

Qaynaqlarda səbrlə digər fəzilətlər arasındakı əlaqələrə də toxunulmuşdur. Məsələn, Allahın adlarından birinin "sabur" olduğu və səbrlə helim (təmkinli olma) arasında məna yaxınlığının olduğu bildirilir. Amma "helim"də səbrdən daha üstün bir təmkinlilik və dözümlülük mənası var. "Helim" istilahının dözümlülük, əfv, səbr və ağıldan ibarət dörd fəziləti ehtiva etdiyi bildirilir. Səbrlə əlaqəli digər bir istilah "riza"dır. Qəzaliyə görə, məşəqqətlərə təhəmmülün fərqli dərəcələri vardır. Dözüb-qatlanmanın çətin olduğu başlanğıc dərəcəyə səbr, nəfsani arzuların tam olaraq təzyiq altına alındığı ən yüksək dərəcəyə riza deyilir... (ardı var)

***Professor İ.Abbasov***

# Qarabağ universitetinin hansı özəllikləri olacaq?

**Ölkənin təhsil gündəmini "Qarabağ Universiteti"nin yaradılması və onun perspektivi zəbt edib. Ciddi müzakirələr gedir, hamı öz fikrini və arzularını bildirir. Əsas səbəb cəmiyyətin təhsilə artan marağı deyil, bu universitetin Xankəndində yaradılmasıdır. Bu hamının arzusu idi, Xankəndi azad edilsin, orda bayrağımız yellənsin, azərbaycan dilində tədris aparan universitetimiz açılsın. Nazir də bu ərəfədə öz çıxışında da bu universitetin yaradılması barədə öz fikrini bildirdi.**

Yeni universitetin yardılması üçün etalon olaraq "ADA Universiteti"ni və "Ali Neft Məktəbi"ni lərini təklif edənlər də oldu. Bu universitetlər gənc universitet olmasına baxmayaraq, ölkədəki digər ATM-dən yaxşı mənada fərqlənirlır.

Amma bir məsələni də unutmaq olmaz: ADA Universiteti XİN, BANM isə SOCAR-ın yaradıb. Müstəqillik illərində TN-nin yaratdığı ATM AMİ isə özünü doğrultmadı deyə onu bağlamaq lazım gəldi, hər dəfə bu ATM-nin adı çəkiləndə pis xatirələr yaranır yaddaşlarda. Həqiqətən onun yaranmasına heç bir ehtiyac yox idi. Bu qərar səhv idi. Xüsusən, bir neçə ayın ərzində, tez-tələsik, heç bir hazırlıq olmadan keyfiyyətli ATM və onun 11 filialının yaradılması mümkün deyildi. Bu da təhsilimizi geri çəkən amillərdən oldu, hərçənd indi heç kim bunu yada salmaq istəmir.

Biz əvvəllər də qeyd etdiyimiz kimi, Qarabağ universuteti sıradan bir universitet olmamalıdır. O ən azı Qafqazın lider univeritetlərindən biri olmalıdır, biz onu ölkəmizdə olan mövcud nümunələr əsasında yox, ölkədə analoqu olmayan bir universitet kimi layihələndirməli və yaratmalıyıq. Bu işdə tələsmək olmaz. Məsələn, ADA Universitetin yaradılması haqqında fərman 2014-cü ilin yanvarında olsa da , ilk qəbul 30 ay sonra- 2016-cı ilin yayında aparılıb, özü də az sayda ixtisaslar üzrə. Bu müddət ərzində ciddi hazırlıq işləri aparıldı.




Bizim təhsil sahəsində bir çox proseslər heç bir hazırlıq aparılmadan, layihələnmədən, ətraflı müzakirə edilmədən tələsik icra edilir. Təklif edirik ki, Qarabağda heç olmasa Kutaisi Beynəlxalq Universiteti (KBU) səviyyəsində bir univeritet yaradaq. Biz özümüzü Qafqazın lider dövləti saysaq da, elm-təhsil sahəsində bu belə deyil. KBU 4 il ərzində yaradıldı, 1 milyard avrio investisiya edildi. Bizdə 30 ildə 51 ATM toplam olaraq heç bu qədər investisiya qoyulmayıb. Bizim məmurlar hələ də qəbul etmək istəmirlər ki, müasir elm və təhsil böyük investisiya tələb edir, elm və təhsilin inkişafı üçün alim və professora yüksək maaş verilməlidir, ya da digər universitetlərimizin də aqibəti AMİ kimi olacaqdır. "1500 manata mühəndis hazırlamaq olmaz", bəli, amma 1500 manata universitet müəllimini də işlətmək olmaz, hərçənd reallıqda 2 dəfə az maaşa işləyirlər onlar.

KBU yaradıcıları qeyd edir: "KBU-ya 1 milyard avroluq sərmayəmizin miqyası ambisiyalarımızın əhatə dairəsini göstərir. KBU Rusiya, Orta Asiya və Qafqazdan ən yaxşı, ən parlaq məzunlar üçün bir maqnit olmalıdır. Məqsədimiz dünyanın aparıcı regional təlim, texnologiya və innovasiya mərkəzinin yaradılmasıdır ".

KBU bu gün dünyanın ən yaşıl universitetlərindən biridir.

Bəs biz bu universitetə ən parlaq məzunları cəlb edə biləcəyikmi? Problemlərdən qaçmaqla, onları etiraf etməməklə, bu problemlər yox olmayacaq. Görəsən yeni universitetə qəbul balı nə qədər olacaq? 200 yoxsa 300 bal?

Ümumən məktəb təhsili çökən, məktəbi repetitor ümidinə qalan ölkədə güclü universitet yaratmaq olarmı? Çünki, güçlü universitet ilk növbədə yüksək hazırlıqlı abituriyant olmasını tələb edir.

Biz illər ərzində bu kimi sualları qaldıranda ETN məmurları bu suallara cavab verməK, onların birgə həll yollarını axtarmaq əvəzinə özünü görməzliyə və eşitməzliyə vurdu, bununla da problemlərin silsilə ilə artmasına və qiymətli illərin itirilməsin rəvac verdi.

Ali təhsil sahəsində Qafqazın öncül universiteti olan KBU Amerika və Avropa təhsil standartlarına uyğun şəkildə "beynəlxalq" universitet kimi xüsusi olaraq dizayn edilib. KBU-nun tərəfdaşı Münhen Texniki Universiteti (TUM) QS Dünya Universitetləri Reytinqində Avropanın ən yaxşı universitetlərindən biridir.

KBU elm və texnologiyaya diqqət yetirərək, yaşayış yerləri də daxil olmaqla, kampus içərisində bir sıra təhsil xidmətləri təklif edir. Təhsilin məzmunu, hazırda Alexander von Humboldt mükafatına layiq görülən 6 professorun çalışdığı və dünyaya 15 Nobel mükafatı laureatı bəxş etmiş Münhen Texnik Universiteti ilə birgə hazırlanıb. KBU hazırda kompüter elmləri, riyaziyyat və idarəetmə sahələrində bakalavr dərəcəsi proqramları təklif edir. Magistr, doktorantura və postdoktorantura proqramlarını dəstəkləmək üçün ən müasir tədqiqat, tibb mərkəzləri və laboratoriyaları var.

Elmi-tədqiqat mərkəzləri artıq dünyanın hər yerindən aparıcı alim və investorları cəlb edir. Xərçəng xəstəliklərinin müalicəsi üçün Avropa proton terapiya texnologiyasının aparıcı təchizatçısı olan "Ion Beam Applications of Belgium" şirkəti universitetin tibbi tədqiqat mərkəzində siklotron quraşdırır.

KBU-nun digər üstünlükləri: bura təhsil üçün gözəl məkan kimi qəbul edilib. KBU şəhər kənarındakı yeni ərazidə, regionun bütün əsas ölkələri ilə birləşən beynəlxalq hava limanının yanında ən müasir tikililərə sahibdir. KBU qonşu ölkələrdən istedadlı tələbə kontingentini cəlb edir. Universitetdə mühazirələr Almaniya, Yaponiya, ABŞ və dünyanın digər ölkələrindən olan professorlar tərəfindən aparılır. Universitetdə təhsil ingilis dilindədir.

Biz Xankəndində belə bir universitet yarada bilərikmi? Bu ATM-nin yaradılmasına 1 milyard investisiya qoymağa hazırıqmı? Yoxsa, adi, 52-ci ali təhsil müəssisəsi yaradırıq? Bəlkə, bu ciddi işi QS reytinqinə 20 ildə bir universitet çıxara bilməyən ETN yox, bu siyahıda 75 ATM ilə təmsil edilən Türk qardaşlarımıza həvalə edək?

# Qarabağ Universitetinin gələcəyinə inanıram

Məlum olduğu kimi ölkə Prezidenti İlham Əliyev "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Bu sərəncam təhsil sistemimiz qarşısında çox ciddi vəzifələr qoyur.

Yeni yaradılacaq Qarabağ universitetini tam fərqli modeldə qurmaq lazımdır, əks halda, əvvəlki 51 universitetdən heç bir fərqi olmayacaq, yəni qlobal reytinqlərdə mövqeyi zəif olacaq. Elə universitet qurmalıyıq ki, Qafqazın ən yaxşı universiteti olsun, o cümlədən Ermənistanın da universitetlərindən güclü olsun.

Sərəncamda qeyd edilir: " ...Əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılmasında nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir. ...

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarıb.".

Bu ciddi vəzifələri icra etmək üçün yeni yaradılacaq ali təhsil müəssisəsi İnnovativ Universitet olmalıdır. Onun rəqabətqabiliyyətli və İnnovativ olması üçün bizim də müəyyən təkliflərimiz var. Bu yaxında ölkəmizin bir sıra universitetlərində bu mövzuda təqdimat etdik (ADA universitetində, UNEC-də, ADPU-da, Azərbaycan Universitetində, Qərbi Kaspi Univrsitetidə v.s.). Təqdimat universitetlərin professor-müəllim heyəti tərəfindən maraqla qarşılandı.

Düşünürəm ki, ETN bu işin məsuliyyətini dərk edir və son illər təhsil sahəsində buraxdığı silsilə səhvləri daha təkrar etməyəcək.

Beynəlxalq təcrübədə müasir universitetlərin fəaliyyətinin əsas istiqamətlərindən biri kimi innovasiyaların yaradılması, elmi-texniki nailiyyətlərin transferi, onların kommersiyalaşdırılmasıdır. Ölkəmizdə bu gün 51 universitet olsa da, bunların heç biri nə sahibkar, nə tədqiqat, nə də innovativ universitet statusu qazana bilməyib. Bu




səbəbdən hesab edirik ki, yeni yaradılan universitet elə əvvəlcədən innovativ universitet kimi layihələnməlidir. Əgər biz belə bir innovativ universitet yarada bilsək (bu çox çətin, amma mümkün məsələdir) bunun nəticəsində ölkədə innovativ fəaliyyət də inkişaf edə bilər. Qarabağ Universitetinin innovativ xarakterli olması həm də Qarabağ regionunun innovativ inkişafına təkan verə bilər.

Regionda ağıllı texnologiyaların tətbiqi perspektivi burada güclü insan potensialının, innovativ düşüncəli kadrların tərbiyə edilməsini tələb edir. Əgər bu ideyanı tam reallaşdırıla bilsək, yeni universitet əlavə olaraq yaratdığı innovasiyaların hesabına pul qazana bilər. Burada regional texnoparklar yaratmaq, regional kadrların innovativ fəaliyyətə hazırlanması, inkişafı üçün təlimlərin və təkmilləşdirmə kurslarının təşkili mümkün olar.

Qeyd edək ki, beynəlxalq təcrübədə belə layihələrin hazırlanması üçün ciddi resurslar (vaxt, pul və yüksək səriştəli komandalar v.s.) cəlb edilir, hansı ki, bizim reallıqda bu resurslar məhduddur. ETN-nin indiki potensialını nəzərə alaraq, düşünürəm ki, bu universitetin qurulması ETN üçün çox çətin olacaq. Hesab edirik ki, Qarabağ Universitetinin yaradılması ilə ETN yox, Türkiyənin YÖK qurumu məşğul olsa daha yaxşı nəticəsi olar. Əks halda daha bir AMİ yaranacaq, hansı ki, təhsilimizə bir ləkə idi. Yaxşı ki, gec də olsa onu bağladılar.

Türk qardaşlarımız ordu quruculuğunda bizə yaxından dəstək verdiyi kimi, gərək təhsil quruculuğunda da dəstək olsunlar. Çünki, təhsilin normal qurulması ordudan da vacibdir. "...sosial inkişafın, tərəqqinin hərəkətverici qüvvəsi, ölkənin ərazi bütövlüyünün və vətənin müdafiəsinin ən təsirli silahı TƏHSİLDİR. Təhsildəki boşluqlar digər sahələrdəki üstünlüklərlə doldurula bilməz. İlk növbədə TƏHSİL problemləri həll edilməlidir". (Professor Əziz Səncər)

Ümumiyyətlə təhsilimizin indiki ağır durumdan xilas etmək üçün qardaş Türkiyənin "təhsil desantı"na ehtiyacımız var! Son illərin acı təcrübəsi göstərdi ki, təhsil islahatlarını düz aparmamışıq. Bunun nəticəsidir ki, qəbul imtahanlarında əksər abituriyentlər 200- 250 bal toplayır. Universitetlərimiz qlobal reytinqlərində, PİSA- şagird nailiyyətlərinin beynəlxaq qiymətləndirilməsində, qlobal insan inkişafı indeksində (2023-cü ildə bu siyahıda 98 -ci yerdə olduq), qlobal innovasiya reytinqlərində v.s. sıralamalarda mövqelərimiz çox zəifdir. Bu haqda vaxtı ilə bizim xeyli məqalələrimiz də olmuşdu. Təhsili indiki ağır durumdan daha yaxşı vəziyyətə gətirmək üçün bundan sonra ən azı 10 il vaxt lazım ola bilər, əgər bu gün fövqəladə addımlar atılarsa.

Bütün bu çətinliklərə baxmayaraq, Qarabağ Universitetinin gələcəyinə inanıram. Çünki, ən çətin işi-torpaqlarımızı işğaldan tam azad edə bildiksə, bu məsələni də inşaallah həll edəcəyik.

**Dos. İlham Əhmədov**

# Yeni dəhliz planı gərginliyi artırdı




**Zəngəzur toqquşma meydanına çevrilir**

**“Şərq-Qərb” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu ilə müsahibəni təqdim edirik.**

*- Ermənistan Qərbə inteqrasiya xətti tutub. Bu proses də Ermənistanın Rusiyanın lider olduğu formatları boykot etməsi və Moskvaya yönəlik sərt ittihamları ilə müşayiət olunur. Üstəgəl, Kremlin İrəvana yönəlmiş, artıq təhdid və hədə dilinə keçən bəyanatları ilə. Bu prosesdən gözləntiniz nədir, hansı gəlişmələr ola bilər?*

- İkitərəfli münasibətlərdəki mövcud gərginlik 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyindən sonra başlayan prosesin davamıdır. Rusiya post-sovet məkanında inqilabla hakimiyyətə gələn qruplar, liderlər və ya partiyalara dözümsüz mövqe sərgiləyir. Bunu əvvəllər Gürcüstan, Ukrayna və Moldovanın timsalında görmüşük, indi də Ermənistanın. Ukrayna xarici bu ölkələrlə müqayisədə Ermənistandan Rusiyaya göstərilən müqavimət, verilən bəyanatların sərtliyi göstərir ki, İrəvan kənardan ciddi dəstəyə malikdir, ilk növbədə Qərbdən. Təkcə Qərb deyil, Ermənistan İranla da çox sıx əlaqələrə malikdir, Hindistanla hərbi əməkdaşlıq qurur. Nəhayət, Ermənistan ərəb ölkələri ilə münasibət qurmağa başlayıb. Həmin ərəb ölkələri ilə müttəfiq olan Qərbin prosesə təsiri olmamış deyil. Faktiki görürük ki, Qərb Ermənistana hərtərəfli siyasi-diplomatik dəstək verir, o cümlədən hərbi.

Düzdür, ciddi iqtisadi dəstək görünmür, bunun da səbəbi odur ki, Ermənistan iqtisadiyyatı tam formada Rusiya tərəfindən zəbt olunub. Ermənistanın bütün infrastruktur elementlərini Rusiya şirkətləri alıb və onlar tərəfindən istismar olunur. Belə olan halda Rusiya hansı addımları ata bilər? İkinci Qarabağ Müharibəsində gördük ki, Rusiya Ermənistana dəstək vermədi. Rusiya düşündü ki, Ermənistanın müharibədəki hərbi məğlubiyyəti Paşinyan hakimiyyətinin getməsi ilə nəticələnəcək. Amma bu olmadı. Məlum oldu ki, Paşinyan hakimiyyətinə həm daxildən, həm də beynəlxalq güclər tərəfindən ciddi dəstək var.

İndi proses hara qədər gedə bilər? Yəqin Ermənistan çalışacaq ki, hərbi baxımdan Rusiyadan ayrılsın. Bu istiqamətdə də addımlar atılır. Əlbəttə, Rusiya bunu özünə rəva görə bilməz. Əslində, bu, Azərbaycanın da marağında deyil. Çünki bu halda Rusiya Azərbaycan ərazisində özünə yer etməyə, Qarabağdakı “sülhməramlı kontingent”indən hərbi baza kimi istifadə etməyə çalışacaq.

Digər yandan, Rusiya çalışacaq ki, Ermənistanı iqtisadi cəhətdən izolyasiya etsin. Dediyim kimi, Ermənistanın infrastruktur elementlərinin çoxu Rusiya şirkətlərindən asılıdır.

Amma məsələ budur ki, Rusiya bunu edəcəyi halda Ermənistan alternativ əlaqələrə can ata bilər, ilk növbədə Türkiyə ilə münasibətlərini bərpa etməyə. İndi Ermənistan bunun üçün çalışır. Bu durumda iqtisadi baxımdan Rusiyadan asılılıq aradan qalxacaq və Rusiya Ermənistanı tam uduzacaq. Hətta Azərbaycanın son antiterror əməliyyatlarından sonra da, Paşinyanı devirə bilməyən Rusiya üçün son variant kimi hərbi çevriliş qalır.

Düşünürəm ki, Ermənistan ordusunda rusiyayönlü hərbçilərin sayı kifayət qədərdir. Rusiya onlardan istifadə etməyə çalışacaq. Amma Ermənistan hökuməti də bunu görür, bilir. Buna görə də, ordu daxilindəki rusiyapərəst generaliteti istintaqa, sorğu-suala cəlb etməklə onları təhdid altında saxlayırlar.

Başqa bir mümkün gəlişmə yenidən Ermənistanla Azərbaycan arasında müharibəyə təhrik etməkdir. Hələlik bunun üçün Rusiyanın resursları var. Amma getdikcə bu resursları da Rusiyanın əlindən çıxır. İndi hər şey Qərbin Ermənistanı hansı formada dəstəkləyəcəyindən və ya verdiyi dəstəyi nə qədər artıracağından asılıdır. Hazırki situasiyada görünən budur ki, Rusiya Ermənistandakı vəziyyəti öz xeyrinə dəyişə bilmir, ya buna gücü çatmır, ya da hansısa səbəblərdən bu riskə getmək istəmir.

Unutmayaq ki, Rusiyanın Ermənistandakı əsas dayağı “Qarabağ klanı”dır. Bu klana da yerli Ermənistan əhalisi arasında dərin nifrət var. Robert Köçəryan və Serj Sərkisyanın hərəsinin 10 illik hakimiyyətlərindən sonra bu klana olan münasibət olduqca neqativdir. Rusiyanın bu baxımdan da imkanları xeyli məhduddur.

*- Baş nazir Nikol Paşinyan “Sülh qovşağı” adlı proje təqdim edib. Layihə Zəngəzurdan keçəcək yollara və ya nəqliyyat dəhlizinə Ermənistanın nəzarətini ehtiva edir. Rusiya açıq formada bildirdi ki, həmin yollara nəzarət onda olmalıdır. Qərb bu məsələdə Ermənistanı dəstəkləyir. Bu nöqtədə toqquşan maraqlar dəhliz məsələsini hansı istiqamətə çəkə bilər?*

- Paşinyanın “Sülh qovşağı” layihəsinin reallaşma imkanı daha çoxdur, nəinki Rusiyanın nəzarətini ehtiva edən dəhliz projesinin. Ermənistan bu layihəni ona görə irəli sürüb ki, həm də Türkiyə və Azərbaycanla münasibətlərinin normallaşdıra, həm də həmin dəhliz üzərində nəzarətini və suverenliyini özündə saxlaya bilsin. Rusiya bunu istəmir. Çünki Zəngəzur dəhlizi Rusiya üçün Şimal-Cənub dəhlizinin mühüm elementidir. Rusiya Azərbaycan üzərindən bu yolla keçməklə İranın dəmir yolu şəbəkəsinə bağlanmağa çalışır. Paşinyan bu plana ciddi şəkildə mane olur.

Azərbaycan özünü sakit aparır, bu da təbiidir. Ermənistanla Rusiya arasında ziddiyət varsa, bunu özləri aydınlaşdırsınlar, belə götürdükdə, bunun Azərbaycan üçün bir o qədər də əhəmiyyəti yoxdur. Yəni bu yola kim nəzarət edəcək?! Əlbəttə, müəyyən qədər önəmi var, xüsusən də Türkiyə üçün. Rusiya nəzarət edəcəyi halda Azərbaycanın qərb rayonları ilə Naxçıvan və Türkiyə arasında yalnız ticari əlaqələr olacaq. Məsələn, Naxçıvandakı ordu korpusunun təchiz olunması, yaxud Türkiyədən Azərbaycana müdafiə xarakterli yüklərin daşınması qeyri-mümkün olacaq. Ermənistan buna imkan verməyəcək, eyni zamanda həmin addımları Rusiya atacaq.

Ermənistan hökumətinin əli ilə bu layihəyə mane olan Qərbdir. Bu da Ermənistandakı siyasi vəziyyətdən asılı olacaq. Ermənistanda siyasi vəziyyət dəyişsə, Rusiyanın layihəsi keçəcək. Belə bir dəyişiklik olmasa, Qərbin Ermənistanda istədiyi proje reallaşacaq. Maraq toqquşmaları aydın görünür. Həmin maraq toqquşmaları hərbi qarşıdurmaya gətirib çıxara bilər. Əlbəttə, Rusiyanın Ermənistanda hərbi gücü var, amma bundan Ermənistan dövlətinə qarşı açıq istifadə edə bilmir. Belə bir addım “ikinci Ukrayna cəbhəsi”nin açılması demək olacaq. Ukraynalılardan fərqli olaraq, ermənilərin Rusiyaya qarşı bir ciddi silahı var – terror. Bu halda Rusiyada erməni terroru baş alıb gedə bilər.

Bir məsələ də budur ki, 10 noyabr üçtərəfli bəyanatının 9-cu bəndi (kommunikasiyaların açılması ilə bağlı – red.) Ermənistan tərəfindən öhdəlik kimi qəbul edilmir. Çünki hüquqi sənəd deyil. Gördük ki, Ermənistan heç Qarabağla bağlı bəndlərə riayət etmədi, eynən Rusiya kimi. Həmin üçtərəfli bəyanata az-çox riayət edən Azərbaycan oldu. Əslində, həmin sənədi qüvvədən düşmüş hesab etmək mümkündür. Əgər Ermənistan üçtərəfli bəyanatdan çıxacaqsa, bu, yenə Azərbaycanın xeyrinə olacaq. Bu halda Azərbaycan Rusiya hərbçilərinin Qarabağdan çıxarılmasını tələb edə bilər. Çünki Ermənistan bəyanatdan çıxacağı halda, sənəd öz qüvvəsini itirmiş hesab olunacaq. Baxmayaraq ki, onun heç bir hüquqi əsası yoxdur, bu halda isə siyasi baxımdan da önəmini itirəcək.

Eyni zamanda, ermənilər Qarabağdan gediblər, buna baxmayaraq, Rusiya orada da möhkəmlənməyə çalışır. Heç olmasa ermənilərin bir hissəsini qaytarmağa çalışır ki, özünün oradakı mövcudluğunu əsaslandıra bilsin.

Bir sözlə, baş verənlər Rusiya-Ermənistan qarşıdurması kontekstində nəzərdən keçirilməlidir. Rusiyanın bu gün Ermənistandakı başlıca marağı həmin dəhlizdir. Heç hərbi baza da deyil, məhz dəhlizdir.

*- Azərbaycan və Ermənistan sərhəd komissiyalarının müzakirələrini ikitərəfli formatda sərhəddə davam etdirmək barədə razılaşıb. Sizcə, bu nöqtədən sonra sülh danışıqları da birbaşa davam edə bilərmi? Məsələn, sərhəd və ya Gürcüstanda. Ən əsası, vasitəçisiz danışıqlar bizi sülhə nə qədər yaxınlaşdıracaq?*

Danışıqların istər sərhəddə, istərsə də Tiflisdə aparılması müsbət tendensiyadır. İlk növbədə, bu ona imkan yaradır ki, tərəflər bir-birlərinin qarşısında məsuliyyət duysunlar, etimada qazana bilsinlər. Çünki etimad olmasa, hansısa sülh və ya sazişdən söhbət gedə bilməz. Digər yandan, sülh sazişi böyük dövlətlərin, məsələn, Rusiya və ya Qərbin vasitəçiliyi ilə imzalanacaqsa, burada qazanan vasitəçilər olacaq, uduzan isə bu sazişi imzalayanlar.

Həmişə hesab etmişəm ki, Azərbaycan və Ermənistanın ya birbaşa, ya da Gürcüstanın vasitəçiliyi ilə danışıqlar aparmaq imkanı var. Əlbəttə, buna manevələr olacaq – Qərbdən də, Rusiyadan da. Amma görünən budur ki, Qərb-Azərbaycan və Rusiya-Ermənistan münasibətlərinin pisləşməsi fonunda nə Moskva, nə Brüssel, nə də Vaşinqtonda sülh sazişi ilə bağlı danışıqlar aparmaq mümkün olacaq, nəinki onu imzalamaq. Hesab edirəm ki, bu, müsbət tendensiya kimi qiymətləndirilməlidir. Bir o şərtlə ki, hər iki tərəf kənar dövlətlərdən öz daxili sabitliyini qoruyub saxlaya bilsin. Çünki böyük güclər bu cür geosiyasi təsir vasitəsindən – Azərbaycanla Ermənistan arasındakı sülh danışıqlarından imtina etmək fikrinə deyil, bu fikirdə olmayacaqlar.

Hər şey tərəflərin niyyətindən və məqsədə çatmaq üçün ortaya qoyacaqları iradədən asılı olacaq. İnanmaq istəyirəm ki, bütün bu mümkün və potensial manevələrə baxmayaraq, buna nail olmaq olar. Yəqin ki, olacaqlar. Əsas məsələ prosesə başlamaqdır. Azərbaycan mesajı verdi, Ermənistan da bunu qəbul etdi, indi qalır prosesi addım-addım irəli aparmaq, heç olmasa çərçivə sazişi imzalamaq. “Çərçivə sazişi” dedikdə, ümumi prinsipləri razılaşdırmağı nəzərdə tuturam. Məsələn, bir-birinin ərazi bütövlüyünü tanımaq, sərhəd məsələsini qarşılıqlı anlaşma çərçivəsində həll etmək, bir-birinə təhlükəsizlik təminatı vermək və sair. Azərbaycan və Ermənistan bu üç prinsip əsasında çərçivə sazişi imzalaya bilsə, bu, sülhə aparan ciddi yol olacaq.

*- Qərblə, yaxud ABŞ-la Azərbaycan arasındakı gərginlik hara qədər davam edə bilər?*

- Gərginlik o zamana qədər davam edəcək ki, Qərb Azərbaycanın öz suverenliyini bərpa etməsinə adekvat reaksiya verəcək. Hələlik reaksiya adekvat deyil. İllərlə sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini deyən Avropa Birliyi, ABŞ Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdikdə, buna tam əks mövqe sərgiləməyə başlayıb. Bu yanlışın kim tərəfindən edildiyini adi bir misalla göstərim. ABŞ-ın Azərbaycandakı səfirləri birmənalı şəkildə Şuşaya getməkdən imtina edirlər. Səbəb? Heç bir səbəb yoxdur. Şuşa Azərbaycan ərazisidir, həmişə də belə olub. Azərbaycanın ərazi bütövlüyünü tanıyan ölkələrin səfirləri niyə ora getməsinlər?! Yaxşı, Şuşaya getmirlər, bəs Şərqi Zəngəzura getməyə nə mane olur?! Məsələn, Zəngilana, Cəbrayıla, Qubadlıya, Füzuliyə, Ağdama... Amma biz görürük ki, ABŞ-ın Ermənistandakı səfirləri bir-birlərinin ardınca sərhəd bölgələrinə, Zəngəzura gəlirlər, oradan müxtəlif mesajlar verirlər.

**Nə qədər ki Qərb ölkələri bu münasibətlərini dəyişməyib, Avropa Birliyi-Azərbaycan, ABŞ-Azərbaycan münasibətlərində müsbət tendensiya olmayacaq. Azərbaycan bu məsələdə geri çəkilsə, üzərimizə gələcəklər. Qərb ölkələri ikili standartlardan imtina etməlidir, illərlə sözdə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı verdikləri bəyanatları əməldə sübuta yetirməlidirlər, nəhayət, Azərbaycana qarşı atılan addımları dayandırmalıdırlar. Bu olmayana qədər heç bir müsbət tendensiya olmayacaq, ola da bilməz. Əlbəttə, hansısa mərhələdə bu gərginlik səngiyəcək, o zamana qədər isə tərəflər addımlarında daha ehtiyatlı və adekvat olmalıdırlar.**

*Müəllif: Mənsur Rəğbətoğlu*

# Milyonların içindəki qorxu hissi

## Siyasi liderlər də fobiyalardan kənarda qalmayıblar...

2023-cü ilin noyabr ayının statistikasına görə dünya əhalisinin sayı 8 milyard 72 milyon nəfəri ötüb. Amma sözsüz ki, planetimizdəki bu milyardların hamısı rahat və firavan həyat sürmür. Hazırda 874 milyon insan aclıq, qida çatışmazlığı problemi ilə üz-üzədir, 768 milyon insan isə təhlükəsiz içməli su qıtlığından əziyyət çəkir. Təkcə 2023-cü ildə 11 milyon 252 min insan yoluxucu xəstəliklərdən həyatlarını itiriblər. Göründüyü kimi statistik göstəricilər heç də ürəkaçan deyil. Bu rəqəmlər bir daha sübut edir ki, dünyamız çox da rahat durumda deyil. Dəhşətli faktlardan biri isə odur ki, dünya əhalisinin 15-17 faizi müxtəlif fobiyalardan əziyyət çəkir. Bu heç də kiçik rəqəm deyil.

**Fobiya nə deməkdir?**

Fobiya təşviş və qorxu hissləri ilə müşayiət olunan haldır. Elə bu sözün yunan dilindən mənası da qorxu deməkdir. Fobiya əsasən ürək döyünməsi, baş gicəllənməsi, tərləmə, titrətmə, təngnəfəslik, ürək bulanması, əzələlərdə gərginlik, əllərin və ayaqların keyiməsi ilə müşayiət olunur. Bu cür qorxu hissləri hər bir insanda və istənilən yaşda baş qaldıra bilər. O cümlədən güclü xarakterə və iradəyə malik siyasi liderlərdə də...

Amerika Birləşmiş Ştatlarının tarixində xüsusi yeri olan və dörd dəfə prezident seçilmiş Franklin Ruzvelt qorxu haqqında belə bir ifadə işlədib: “İnsanın ən çox qorxduğu şey elə qorxunun özüdür”. Qorxuların arasında isə Ruzvelt ən çox oddan qorxub. Bu fobiya onu ömrünün sonuna qədər müşayiət edib. Sərbəst hərəkətini itirdikdən sonra isə onda bu hisslər daha da artıb. Ruzvelt heç vaxt, hətta gecələr də olduğu otağın qapısını bağlamayıb. Yanğın baş verdiyi halda qapını aça bilməmək qorxusu Ruzvelti buna məcbur edib. Bu qorxunu nəzərə alaraq prezidentin həyat yoldaşı onun iş və yataq otağına təxliyə məqsədilə ikinci qapıları qoydurub.







30 il müddətində milyonlarla insanı qorxu içində saxlayan İosif Stalinin də fobiyaları olub. Stalin yüksəklikdən, təyyarə uçuşlarından qorxub. Sözsüz ki, bu da onun fəaliyyətinə kifayət qədər problemlər yaradıb. Uzaq səfərləri zamanı təyyarə ilə 2-3 saata qət ediləcək məsafələri Stalin bir neçə günə qatarla gedib. O, yalnız Tehran konfransı zamanı bir dəfə təyyarəyə minib, Bakıya qədər qatarla, Bakıdan Tehrana isə təyyarə ilə uçub. Uçduğu təyyarə isə SSRİ-nin deyil, ABŞ-ın istehsalı olan “Duqlas S-47” təyyarəsi olub.

Dünyanın ən tanınmış siyasətçilərindən biri sayılan, uzun illər Böyük Britaniyanın baş naziri olmuş, ingilis siyasi və dövlət xadimi Uinston Çörçill də fobiyalardan kənarda qalmayıb. Siyasətçi kimi məşhur olmaqla yanaşı, o, natiq kimi də populyar olub. Amma elə qorxusu da nitqi ilə bağlı olub. Çörçill kütlələr qarşısında çıxış etməkdən qorxub. Siayasətə gəldiyi ilk illərdə palata qarşısında üç dəqiqəlik çıxışı zamanı onun nitqi o qədər biabırçı olub ki, palata üzvləri Çörçilli gülüşlə və uzun-uzadı “alqış”larla yola salıblar. Bu hadisədən sonra Çörçill ən kiçik tədbirlərdəki çıxışlarına belə bir-iki həftə əvvəlcədən hazırlaşmağa başlayıb. Çörçill fobiyasına qalib gələ bilib, o, siyasi fəaliyyətinin sonrakı illərində natiq və hazırcavab siyasətçi kimi yadda qalıb.

Dünyaya sahib olmaq istəyən +itler II dünya müharibəsinə başlayanda özünü ən güclü siyasətçi saysa da, onun da qorxu hissi, fobiyası olub. Dünyanın ən güclü sərkərdələrindən qorxmayan +itler diş həkimlərindən çəkinib. Onun ağız boşluğunda kifayət qədər problemlər olsa da, o, heç vaxt diş həkiminə müraciət etməyib. Çürük iddiaları kimi çürük dişlə gəzən +itlerin ağzından ətrafdakılar üçün dözülməz və dəhşətli qoxu gəlib.

Elmi izaha görə fobiyalar əsasən üş yerə bölünür.

Küçə, meydan, bazar, teatr, kino, tunel və sair bu kimi yerlərdəki qorxular aqorafobiya, heyvanlardan (təkcə yırtıcı yox, həm də ev heyvanlarından), yüksəklikdən, qapalı və açıq mühitlərdən, təyyarəyə və liftə minməkdən yaranan qorxurlar spesifik fobiya, daha çox ictimai yerlərdə yeməkdən, danışmaqdan və ya yazmaqdan, həmçinin ictimai nəqliyyatdan istifadə etməkdən, qonaq qəbul etməkdən, əl-ələ görüşməkdən yaranan qorxurlar isə sosial fobiya adlanır.

Bütün bunlarla yanaşı siyasi fobiyalar da var, rəqib kimi qəbul etdiyin siyasi fiqurlardan qorxu hissi.

11 il SSRİ-yə rəhbərlik edən Nikita Xruşovda Stalin fobiyası olub. Xruşov Stalinin tabeliyində işləyəndə, hətta ona verilən tapşırığı ən yüksək səviyyədə yerinə yetirib məruzə edəndə belə qorxu hissləri Xruşovu tərk etməyib. Amma yəqin ki, Stalinin vəfatından sonra Xruşov ondan aldığı qisaslardan sonra öz fobiyası üzərində qələbə qazanıb.

Hər şeyə qadir olan Lavrenti Beriyada Jukov fobiyası özünü bütün açıqlığı ilə büruzə verib. SSRİ-nin baş cəlladında marşala qarşı qorxu o qədər güclü olub ki, o, dəflərlə Jukovun həbsi ilə bağlı Stalinə müraciət edib. Amma hər şey əksinə baş verib. Jukov özü qorxu içində olan Beriyanın əllərini qandallayıb və bununla da Beriya o dünyaya öz fobiyası ilə gedib.

18 il baş katib kürsüsündə əyləşən Leonid Brejnevdə Kosigin fobiyası olub. Brejnev onun populyarlığından, xalqın ona olan sevgisindən, işgüzarlığından qorxub. Brejnev bu fobiyadan qurtulmaq üçün uzun illər Aleksey Kosıgini siyasi səhnədən uzaqlaşdırmağa məqam gözləyib və sonda istədiyinə nail olub.

15 il SSRİ DTK-sına başçılıq edən və sonradan mübarizələrdən qalib çıxaraq birinci kürsüdə əyləşən Yuri Andropovda daxili işlər naziri Nikolay Şelokov qorxusu olub. Amma Andropov bu fobiyaya qalib gəlib, hətta mübarizəni o həddə çatdırıb ki, Şelokov özünü güllələyib.

Bu gün də dünyanın siyasiləri arasında fobiyalarla yaşayanlar az deyil. Kimisi bunu biruzə verir, kimisi isə gizlətməyi bacarır. Fobiyanın necə bir hal olduğunu daha dəqiq anlamaq üçün isə Ermənistanın baş naziri Nikol Paşinyanın fəaliyyətinə nəzər yetirmək kifayətdir. Aşırı dərəcədə Azərbaycan qorxusu ilə yaşayan Paşinyan nə qədər cəhd etsə də öz fobiyasını gizlədə bilmir. Bu isə uğursuz siyasətin və məğlubiyyətin göstəricisidir.

# Gürcülər Stalinin nəvəsini necə "öldürüblər?"

XX əsrin ən nəhəng siyasi liderlərindən biri olan, Alman faşizmi üzərində qələbə çalan İosif Stalin 30 il ərzində SSRİ-də mütləq hakimliyini təmin edə bilsə də, o, şəxsi ailə problemləri qarşısında aciz qalıb. Xüsusilə, oğlu Vasilinin facielərə sürüklənən həyat tərzini dəyişə bilməyib. Ömrünün son illərini həbsxanalarda keçirən Vasili Stalin 1962-ci ildə 40 yaşında vəfat edib. Rəsmi məlumatlarda onun ölüm səbəbi alkoqoldan zəhərlənmə göstərilib. Elə Vasili Stalinin həyat yoldaşı və iki övladının həyatı da faciələrlə yekunlaşıb.

Vasili Stalin rəsmi olaraq dörd dəfə ailə həyatı qurub. Bu nikahlardan yalnız biri atasının ürəyincə olub. Müharibənin sonlarında Stalinə məlumat verilib ki, Vasili marşal Timoşenkonun qız Yekaterina ilə tez-tez görüşür.

1945-ci ildə Qələbə paradı zamanı Stalin Timoşenkoya oğlu Vasili ilə Yekaterinanın tez-tez görüşmələri haqqında məlumat verib. Əslində, ölkənin birinci şəxsi ilə qohum olmaq marşal üçün ürəkaçan xəbər olmalı idi. Amma bu xəbər marşalın heç də ürəyincə olmayıb. Stalinlə dost münasibətində olan Timoşenkoya elə gəlib ki, övladlarının görüşləri onların münasibətində problem yarada bilər. Marşal rəhbərin ağlasığmaz gedişlərinə, kimliyindən asılı olmayaraq ən sərt dəyişməz qərarlarına yaxşı bələd olub. O, həm də öz “narahat” qızının xarakterini də yaxşı bilib. Amma Timoşenkonun məsələyə bu cür münasibəti heç nəyi dəyişməyib.

1945-ci ilin yayında Timoşenko ailəsi ilə birlikdə Soçidə istirahət edəndə Vasili Stalin də Soçidə olub. Həmin istirahət günlərinin birində gecə marşal yatarkən Vasili Yekaterinanı öz razılığı ilə evdən aparıb. Səhəri gün onlar istirahət evinə nikah kağızı ilə birgə qayıdıblar. Marşal bu izdivacın qəti əleyhinə olub.

Qısa müddətdən sonra Vasili Stalin və Yekaterina Almaniyaya gediblər. Vasili həmin dövrdə Almaniyada sovet qoşunlarının aviasiya qrupunun komandiri vəzifəsində xidmət edib. Vasilinin birinci nikahdan olan oğlu və qızı da onlarla birlikdə yaşayıb. Ailədə elə ilk günlərdən uşaqlarla bağlı böyük problemlər yaşanıb. Yekaterina Vasilinin uşaqlarına olmazın işgəncələr verib, hətta onları ac saxladığı, sutkalarla çölə buraxmadığı vaxtlar da olub. Cütlüyün öz övladları dünyaya gəldikdən sonra bu münasibət daha da kəskinləşib. Onların 1947-ci ildə bir qız övladları dünyaya gəlib, adını Stalinin qızının şərəfinə Svetlana qoyublar, 1949-cu ildə isə oğulları olub ki, onun da adını elə Vasili qoyublar. Beləliklə, Stalinin Svetlana adında həm qızı, həm də nəvəsi, Vasili adında isə həm oğlu, həm də nəvəsi olub.

Stalin ümumiyyətlə, Vasili ilə heç vaxt yaxından maraqlanmayıb. Nə onları qonaq çağırıb, nə də onlara təşrif buyurub. Amma mütəmadi olaraq Vasili haqqında ona məlumat verilib. Yekaterinanı isə bu cür münasibət qane etməyib. O, özünü birinci şəxsin ailə üzvü kimi qəbul edərək bütün məsələlərdə diqqət mərkəzində olmasını istəyib. Stalinlə Yekaterinanın ad günlərinin eyni günə, 21 dekabra təsadüf etməsi Yekaterinada özü haqqında yüksək fikir yaradıb və bunun heç də təsadüf olmadığını söyləyib.







## Alkoqol, narkotik, gecə əyləncələri

Yekaterina bu iddialarda olduğu vaxtda Vasili Stalin də öz əyləncələri, yeni tanış olduğu xanımlarla eşq macəraları ilə ailədən soyumağa başlayıb. Ancaq ailənin problemləri bununla bitməyib. Qarşıda Yekaterinanı daha böyük faciələr gözləyib.

1953-cü ildə İosif Stalin vəfat edtikdən sonra Vasili həbs olunub. Həbsdən sonra Yekaterinanı Xruşovun ən yaxın adamı olan Bulqaninin yanına dəvət ediblər. Ona boşanma haqqında ərizə yazmaq təklif olunub. Əks halda onun da həbsxanaya gedəcəyi xəbərdar edilib. Yekaterina dərhal nikahın pozulması üçün ərizə yazıb. Daha sonra isə Vasilini atalıqdan rəsmi olaraq məhrum edib. Bundan sonra Yekaterinaya Moskvanın Qorki küçəsində mənzil veriblər. Bir müddət nisbətən sakit yaşadıqdan sonra növbəti faciələr Yekaterinanın qapısını döyüb.

1956-cı ilin fevral ayında keçirilən partiyanın 20-ci qurultayında Nikita Xruşov Stalinin adının üstündən birdəfəlik xətt çəkəndə, bütün repressiyaların baş müəllifinin Stalin olduğunu bəyan edəndə repressiya olunanların ailə üzvləri, doğmaları Stalinin gəlinini və nəvələrini təhdidlərə, təzyiqlərə, hətta bəzi hallarda fiziki təzyiqlərə məruz qoyublar. Çox ağır durumda olan Yekaterina elə vaxtlar olub ki, sutkalarla evdən çıxa bilməyib.

Marşal Timoşenko xidməti vəzifəsi ilə bağlı Minsk şəhərindən yenidən Moskvaya köçəndə Yekaterina son çıxış yolu kimi atasının yanına dönməyi qərar verib.

Uşaqların gələcək taleyi Yekaterinanı çox narahat edib. Oğlu Vasilinin ali təhsil almaq vaxtı gələndə tanışları ona məsləhət görüblər ki, Vasilini Tiflisə göndərsin. Beləliklə, Vasili Tiflisdə instituta qəbul olunub. Gürcüstanda Stalinə olan böyük rəğbət, sevgi təbii ki, Vasilini hər şeydən qoruyacaqdı. Amma faciələr burulğanına düşən ailəyə bu sevgi növbəti faciəni gətirib.

“İveriya” mehmanxanasında yaşayan Vasilini ziyarətə gələnlərin sayı o qədər olub ki, Moskvada təzyiqlərdən qoruna bilməyən bu cavan oğlan Tiflisdə də isti münasibətlərdən özünü qoruya bilməyib. Günün hər saatında baş tutan məclislər, qafqazlılara məxsus uzun-uzadı sağlıqlar təbii ki, alkoqollu içkilərlə müşayiət olunub və bütün bu “sevgi”nin son nəticəsi də Vasilinin alkoqoldan asılılığına gətirib çıxarıb. Yox, Tiflis təhsili təkcə alkoqolla yekunlaşmayıb. Cəmisi bir-neçə aydan sonra Vasili həyatını narkotiksiz təsəvvür edə bilməyib. Bütün bu əyləncələrin arasında o, ikinci kursa belə keçə bilməyib.

Yekaterina məsələdən agah olan kimi Vasilini yenidən Moskvaya qaytarıb. Ancaq bu, heç nəyi dəyişməyib. “Yenilməz dostlar”ı narkotik vasitələri Vasili üçün yerin dibində də olsa çatdırıblar. Stalinin pərəstişkarları nəvə Vasilini Moskvada da tək buraxmayıblar. Vasilinin gürcü dostları ilə gecə əyləncələri bitib tükənməyib. Yekaterina isə növbəti faciənin astanasında dayanıb. Vasili növbəti narkotik qəbulunda doza həddini aşaraq özünü güllələyib.

Vasilinin ölümündən sonra qohumlar elə düşünüblər ki, Yekaterina bütün meylini qızına salacaq. Qeyd edək ki, onların qızı Svetlanada anadangəlmə sinir xəstəliyi olub və bu xəstəlik onun psixoloji durumunda kəskin şəkildə özünü büruzə verib. Həkimlər Yekaterinaya qızına diqqət göstərməyin, onunla xüsusi məşğul olmağın vacibliyini söyləyəndə o, bundan imtina edib.

Marşal Timoşenko vəfat etdikdən sonra Yekaterina tək yaşayıb, özünə qapanaraq demək olar ki, heç kimlə əlaqə saxlamayıb və bu tənhalıqda qohumları ay yarımdan sonra mənzildə onun meyitini aşkar ediblər. Üstündən bir il keçməmiş xəstə Svetlananın meyiti də tək yaşadığı evdə tapılıb.

Beləliklə, Stalinin oğul, marşal Timoşenkonun qız nəvələrinin həyatı faciələrlə bitib...

Təqdim edən: İlham Cəmiloğlu

# Paralel

**Son səhifə**

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 070 (3640) 7 dekabr 2023-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


# Xroniki yorğunluq sindromunun əsas əlamətləri və səbəbləri açıqlanıb



*"Gündəlik həyatda insanın özünü taqətsiz, halsız, yuxulu hiss etməsinə, hər hansı bir işi görmək üçün enerjinin olmamasına yorğunluq kimi baxılır".* Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Nahid Məhərrəmov deyib.

Onun sözlərinə görə, əgər bir insan fiziki iş gördükdən sonra, yorulursa və istirahət zamanı sərf etdiyi enerjisi bərpa olunursa, bu normal hal hesab edilir.

*"Müayinə zamanı heç bir xəstəlik müşahidə olunmursa, istirahət etməsinə baxmayaraq, insan özünü halsız hiss edirsə və 6 ay ərzində halsızlıq getdikcə daha da artırsa, bu vəziyyət xroniki yorğunluq sindromu adlanır. Xroniki yorğunluq sindromunda yorğunluq, halsızlıq, yuxululuq və ya yuxusuzluq halı müşahidə edilir"*, - N.Məhərrəmov vurğulayıb.

Ekspert bildirib ki, xəstəlikdən dolayı yaranan yorğunluq, xəstəlik müalicə olunduqdan sonra aradan qalxır.

Həkimin sözlərinə görə, qanazlığı olan insanlarda əsasən yorğunluq, halsızlıq, gücsüzlük, nəfəs darlığı, baş gicəllənməsi, ürəyin tez-tez döyünməsi və s. əlamətlər hiss olunur: *"Anemiyada olan yorğunluq orqanların toxumalarında yetərli miqdarda oksigen çatışmazlığı nəticəsində əmələ gəlir. Eyni zamanda, qalxanabənzər vəz xəstəliklərində, əsasən də orqanın həddindən artıq böyüməsi, davamlı yorğunluğa səbəb ola bilər. Orqanizm, infeksiyalara qarşı daimi mübarizə aparmasına görə, zəif immun sistemi də xroniki yorğunluq yarada bilər. Şəkər xəstəliyi və insulin müqaviməti zamanı da yorğunluq müşahidə olunur. Belə ki, yemək zamanı qanda şəkərin dərəcəsində düşmə yaranarsa və şirin yemək istəyi, halsızlıq, ürək döyüntülərinin artması müşahidə olunarsa, buna reaktiv şəkər düşməsi deyilir. Belə insanlar tez çəki alır və özünü tükənmiş hiss edirlər".*

O qeyd edib ki, həmçinin, ağciyər və qaraciyər xəstəliklərinin çoxunda yorğunluq görünür: *"Sadaladıqlarımızdan başqa hərəkətsizlik, həddindən artıq fiziki əməklə məşğul olmaq, xroniki stres və depressiya, arıqlamaq üçün pəhrizlər, antidepressant qəbulu, siqaret çəkmək və spirtli içki qəbulu, xolestrol düşürücü dərmanların istifadəsi, normal qidalanmama, vitamin və mineral çatışmazlığı, burun tənəffüsü problemləri də yorğunluğa səbəb olur".*

Ekspert xəstəliyin müalicəsi barədə də danışıb: *"Müalicənin əsası simptomları yaxşılaşdırmaqdır. Hər bir xəstəyə özəl müalicə yanaşması seçilməlidir. İlk növbədə psixoloji dəstək verilməlidir, çox düşünməkdən, keçmişdə etmədiklərindən, gələcəyi həddindən artıq planlamaqdan çəkinmək lazımdır. Gün ərzində yarım saat sürətli yerimək və 1.5-2 litrə qədər su içmək önəmlidir. İş mühiti və istirahəti düzgün qurulmalıdır".*

N.Məhərrəmov söyləyib ki, qısa müddətli və tez-tez dincəlmə mühiti yaradılmalıdır: *"Bundan əlavə, pasient düzgün qidalanmanın əsas prinsiplərinə əməl etməlidir. Şirin və yağlı qidalardan mümkün qədər az istifadə olunmalıdır. Axşam yeməklərində daha çox tərəvəz və meyvə istifadəsi məqsədəuyğundur. Müalicə boyunca xəstə hər addımda yaxşılaşacağı ilə motivasiya edilməlidir".*



# Uşaqlarda mikoplazma pnevmoniyası aşkarlandı

Uşaqlarda mikoplazma pnevmoniyası ("Mycoplasma pneumoniae") bakteriyasının törətdiyi ağciyər iltihabı xəstəliyi ilə bağlı ilk hallar İtaliyada qeydə alınıb.

Bu barədə İtaliyanın Ali Səhiyyə İnstitutu (ISS) məlumat yayıb.

*"Hazırda tənəffüs əlamətləri ilə xəstəxanaya yerləşdirilən uşaqlarda pnevmoniyanın iki halı qeydə alınıb"*, - məlumatda qeyd edilib.

# Əvvəllər qızılca keçirənlər ikinci dəfə yoluxa bilərlər?



Ölkə ərazisini ağuşuna alan qızılca xəstəliyi gündəmin əsas mövzusudur. Təkcə uşaqlar deyil, böyüklər arasında da müşahidə edilən yoluxmalar hər kəsdə təşviş yaradıb. Ekspertlərin bəziləri hesab edirlər ki, bu xəstəlik qızılcanın başqa növüdür, hansısa virusdan qaynaqlanır. Əslində, *"qızılca xəstəliyini hamı keçirməlidir"* kimi bir anlayış uzun illərdir, xalqın beynində formalaşıb. Əbəs yerə deyil ki, el arasında *"qəbirdə də olsan qızılcanı çıxarırsan..."* deyirlər. Lakin həkimlər bu anlayışı tamamilə mif adlandırırlar. Hazırda vətəndaşları ən çox qorxudan *"Əvvəllər qızılca keçirənlər ikinci dəfə yoluxa bilərlərmi?"* sualıdır.

Tanınmış tibb elmləri doktoru, professor Adil Qeybulla bu barədə sualları cavablandırıb.

Professor deyib ki, qızılca xəstəliyinə yoluxma ömürdə bir dəfə olur: *"Sonra insanda daimi immunitet yaranır, ikinci dəfə yoluxma olmur. Amma heç vaxt qızılcaya yoluxmayanlar peyvənd olunsalar belə, qızılcaya yoluxa bilərlər. Sadəcə, peyvənd olunduqları üçün xəstəliyi çox yüngül keçirirlər. Buna görə də vaksinasiya vacibdir".*

A.Qeybulla hazırda kəskin şəkildə yayılan qızılcanın hansısa virusdan qaynaqlandığını iddia edənlərə isə belə cavab verib: *"Qızılca xəstəliyi qızılca virusu tərəfindən törədilir. Hazırda yayılan xəstəliyi törədən də eyni qızılca virusudur. Heç bir başqa virusdan söhbət gedə bilməz. Sadəcə, epidemioloji vəziyyətin pisləşməsi bununla bağlıdır ki, uşaqların müəyyən kateqoriyası müdafiəsizdir. Çünki valideynlər bir müddət milli peyvənd təqvimi üzrə peyvəndləməyə laqeyd yanaşıblar, uşaqlar peyvənd olunmayıb. Buna görə də müəyyən kateqoriyalı uşaqlar peyvənddən kənar qalıblar. Nəticədə, bu cür kəskin yoluxmalar var. Müdafiəsiz, immuniteti olmayan uşaqlar qızılcadan xəstələnirlər. Zamanında da həmişə qızılcadan kütləvi uşaq tələfatı olurdu. Bu gün də eyni şeyin şahidiyik. Qızılca yoluxucu xəstəlikdir. Kəskin pnevmaniyaya və beyin ödəminə gətirib çıxara bilər. Ölümün də əsas səbəbi budur. Valideynlər uşaqlarını zamanında peyvənd etməyiblər, qaçıblar, bəziləri imtina ərizəsi yazıb. Ən birinci bu məsələnin üzərində dayanmalıyıq. Hesab edirəm ki, dövlətin müvafiq orqanı bununla bağlı təcili işlər görməlidir. Vaksinasiya icbari xarakter almalıdır. Bu, hansısa arzuya bağlı ola bilməz. Epidemioloji vəziyyəti nəzərə alaraq icbari peyvəndləmə başlanmalıdır. Vəziyyətdən çıxış yolu ancaq budur".*


*Təsisçi:*

**Tapdıq Abbas**

*Baş redaktor:*

**Akif Nəsirli**

*Birinci müavin:*

**Şahnaz Salehqızı**

*İnformasiya şöbəsinin müdiri:*

**Röyal Əsədli**

*Bölgə müxbirləri:*

**Vaqif Cəmiloğlu**
**Sadıq Sadıqov**
**Fərman Məhəmməd Əzizli**

**İqbal Məmmədov**
**İlkin Əsədzadə**

*Qəzet 16 fevral 2003-cü ildən çıxır.*

Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə "Azərbaycan" nəşriyyatı

E_mail: paralel_qazeta@mail.ru
*Qəzet Vüqar Tofiqoğlu mətbəəsində çap olunur.*
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**